GÜLÜSTAN
Qadın-Ailə jurnalı
№7-Avqust-Sentyabr

Təsisçi:
Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı

Redaktor:
Lamiyə HACIYEVA

Redaktor müavini:
Mirvari NAĞIYEVA

Redaksiya heyəti:
Mirvari Nağıyeva
Nabat Eminova
Nərgiz Bağırova
Nərgiz Tanrıverdiyeva

Dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: GÜRCÜSTAN,
Rustavi şəhəri,
Şartava 12 b.
Tel: (+995) 577 15 73 81

e-mail:
gulustanjurnali@hotmail.com

Əziz oxucu!

Qarşıdan qəməri hicri təqviminə uyğun olaraq Rəbiül əvvəl ayı gəlməkdədir. Bu ay bizə nə üçün əzizdir, dəyərlidir? Çünki Rəbiül əvvəl ayının 12-də bəşəriyyətin xilaskarı bütün insanlığa nümunə olacaq insan Məhəmməd Mustafa sallallahu əleyhi və səlləm dünyaya gəlmişdir. Onun dünyaya gəlişi tarixin ən önəmli hadisələrindəndir. Çünki onun gəlişi yeni bir dövrün başlanğıcı oldu. Dünyanın, bəlkə də, ən ağır günlərində təşrif etdi sevimli Peyğəmbərimiz. Onun gəlişindən sonra dünya ədalət gördü, dünya həqiqi rəhbər gördü, yetimlərin üzü güldü, qız uşaqları ancaq qız olduqları üçün öldürülməkdən qurtuldu, xürafəyə son qoyuldu. Son peyğəmbər olaraq Allah-Təala

tərəfindən göndərilməklə bütün yaradılanlar üçün nümunəvi insan, ata, həyat yoldaşı, dost və rəhbər oldu. O elə bir rəhbər idi ki, 1400 il keçməsinə baxmayaraq, onun gətirdiyi qanunlar, onun məsləhətləri, hələ də çox aktual və əhəmiyyətlidir. İnsanlar bu gün də Peyğəmbərimizin dediklərinə riayət etməklə dünyalarını və axirətlərini gözəlləşdirə bilərlər. Bu aykı sayımızda bu böyük səxsiyyəti anmaqla gözəl xüsusiyyətlərini bir daha yazmaq istədik. Qiymətli yazarlarımız da bu mövzuda dəyərli yazılarını sizə təqdim edir.

Lamiyə Hacıyevanın “Aləmlərə Rəhmət” başlıqlı məqaləsində həzrət peyğəmbərin fəfilətindən, üstün əxlaqından danışılır. Samirə Mahmudovanın “Bəşəriyyətin xilaskarı” başlıqlı yazısında dünyada məşhur olan insanların Peyğəmbərimiz haqqındakı düşüncələri maraq doğurur. Məryəm Dəmirin “Mənəvi ruzimiz... Həbibimiz...”, Fatimə Zəhranın “Rəsulullahı niyə çox sevməliyik?”, Aysel Vahabovanın “Mövlud qəndili” başlıqlı yazıları əziz Peyğəmbərimizə həsr olunmuşdur.

Əziz oxucu!

Möhtərəm Osman Nuri Topbaşın “Könül iqlimindən incilər” başlığı altında “Könül qazanmaq üçün” yazısı sevimli Peyğəmbərimizin yetimlərə qarşı həssaslığı, sevgisi haqqındadır. Yazarımız Qırğızıstandan Xədicə Şahinin “Orta Asiyadan Qafqaza salam”, Şəbnəm Əndəlifovanın “Müsbət

düşüncə həyat tərzidir” başlıqlı yazıları sizlərə təqdim olunur.

Həkim məsləhəti rubrikasında “Bexterev xəstəliyi”, Gənc və sağlam qalmağın yolları” kimi məqalələrdə maraqlı məlumatlar əldə edə bilərsiniz. Ləzzət dünyası rubrikasında da birbirindən ləzzətli yemək tərifləri hazırlanmışdır.

Gələn sayımızda görüşmək diləyi ilə hər biriniz Allaha əmanət olun.

İÇİNDƏKİLƏR

4 **ALƏMLƏRƏ RƏHMƏT**

Lamiyə Hacıyeva



6 **MÖVLUD QƏNDİLİ**

Aysel Vahabova



8 ***MƏNƏVİ RUZİMIZ... HƏBİBİMİZ...***

Məryəm Dəmir



20 ***KÖNÜL QAZANMAQ ÜÇÜN***

Osman Nuri Topbaş



18 ***HACƏGİ İMKƏNƏGI***

Prof. dr. Nəjdat Tosun



11 BƏŞƏRİYYƏTİN XİLASKARI
Samirə Mahmudova

14 RƏSULULLAHI (S.Ə.S.) NİYƏ ÇOX SEVMƏLİYİK?
Fatimə Zəhra

17 "ƏSMAYI-HÜSNA"
Aygün Məmmədzadə

24 HİCRİ TƏQVİMİ NECƏ YARANDI?
F.f.d. Gülnarə Seyidova

26 ORTA ASİYADAN QAFQAZA SALAM
Xədicə Şahin

28 QÖVMÜ ÜÇÜN ƏN XEYİRLİ OLAN QADIN
Nəzrin Hüseynova

30 KƏPƏNƏK ÖMRÜ
Mətanət Kərimova

32 GƏNC VƏ SAĞLAM QALMAĞIN YOLLARI
Afaq Qurbanzadə

34 BİR SEVDA UĞRUNA
Xanım Abdullayeva

36 LƏZZƏT DÜNYASI
Aygün Məmmədzadə

38 BEXTEREV XƏSTƏLİYİ
Vüqarə Məmmədova

40 MÜSBƏT DÜŞÜNCƏ HƏYAT TƏRZIDIR
Şəbnəm Əndəlifova



Günah tikanlarından qorunmaq

Hz. Ömər (r.a.) bir gün Übey ibn Kabdan (r.a.) təqvanın nə olduğunu soruşur. Übey də ona:

- "Sən heç tikanlı bir yolda yeridinmi ey Ömər?" - deyir.

Hz. Ömər də:

-"Bəli, yeridim",- deyə cavab verincə, bu dəfə də:

-"Bəs nə etdin?" - soruşur. Hz Ömər (r.a):

-"Paltarımı əlimə yığdım və tikanların mənə zərər verməməsi üçün bütün diqqətimi topladım",- cavabını verir. Übey ibn Kab da:

-"Əsl təqva budur",- deyir.



Aləmlərə Rəhmət

Lamiyə Hacıyeva

Bəzən elə sözlər olur ki, insanbu sözləri söyləyərkən özünə çəki düzən verməli olur. Yəni ki, duruşunu düzəltməli olur. Çünki Cümlələr bu sözləri içinə aldığında məna qazanır.

Bu sayımızın mövzusu iki dünya sərvəri, fəxri kainat Hz. Məhəmməd (s.ə.s) haqqında olduğu üçün mən də bu mövzuda yazmağı düşündüm. O, həm də varlığımızın səbəbidir.

Varlığımızın səbəbidir deyərək başladıq, çünki Allah (c.c) *"Həbibim; Sən olmasaydın Kainatı yaratmazdım."* buyurur. Bu nöqteyi – nəzərdən daxdıqda dünya üzərində yaşadığımız bu fani həyatı onun varlığına borcluyuq.

Bir başqa yöndən *"İnsan sevdiyi ilə bərabərdir"* hədisi şərifini də nəzərə alsaq, belə bir rəhmətə, bir günəşə, bir işığa və aydınlığa hava kimi, su kimi ehtiyacımız var. Bu dövrdə onun əskikliyi o qədər hiss olunur ki, ancaq ona müştaq və mütəşəkkir könüllər bunu izah edə bilər.

Onunla (s.ə.s) görüşmək üçün onu çox sevməli, sevgimizi göstərmək üçün də tabe olduğumuzu isbat etməliyik. Çünki ona olan sevgimiz bizləri Allaha (c.c) çatdıracaq.

"Həbibim: de ki: Əgər Allahı sevirsinizsə mənə uyun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın".

Axirət aləmində ona çox ehtiyacımız olacaq. Onu sevməyimiz onu yaxşı tanımağımızdan keçir. Həyatını və xüsusiyyətlərini bilməyimiz onu daha çox anlamağımıza və məqsədini bilməyimizə səbəb olar. Bəli, O, (s.ə.s) aləmlərə rəhmət olaraq göndərildi. Çünki dünyaya təşrifindən əvvəl yaşanılan qaranlıq o dövr cildlərlə dolu ensiklopediyalara mövzu olmuşdur. O, bir nur idi. Gəlişi ilə kainatı nurlandırdı, işıqlandırdı. Qaranlıq ruhların yox olmasına, işıqlı qəlblərin meylinə səbəb oldu.

O gəlmədən əvvəl yer üzündə insanlıq qüruru deyə bir şey qalmamışdı. İnsanlar pul ilə alınıb satılırdı. Qız uşağı olmaq bir utanc məsələsi idi. Ya bu utancla yaşanacaq ya da diri-diri torpağa basdırılıb başı dik gəzilcəkdi. Hələ qadınların heç dəyəri yox idi. Onlar bazarlarda satılan bir əşya hökmündə idilər.

Hər şeydən əhəmiyyətlisi tövhid əqidəsi yerlə bir olmuş, Allah inancı olmadığı üçün qəlblər sərtləşmişdi. Kəbənin içi 300 - dən çox bütlə dolmuşdu. İnsanlıq bu daşdan, ağacdan düzəldilmiş şəkillərdən mədət umur, hər cür ehtiyacları üçün bu cansız əşyalara müraciət edirdilər. Daha da acınacaqlısı pendirdən, halvadan bütlər düzəldirdilər, qarınları acınca da yeyirdilər. Bu və buna bənzər yüzlərlə xəstəlik cəmiyyət içərisində qol gəzirdi. İnsanlar pərişan bir vəziyyətdə idilər. Faiz bataqlığı cəmiyyəti iflic etmişdi.

Belə bir zamanda, yerdə və göydə olan bütün varlıqlar ortalığı örtən qara buludları dağıdacaq, həqiqət nurunu parıldadacaq rəhmət və şəfqət Peyğəmbəri Hz. Məhəmmədi (s.ə.s) gözləyirdi. Çünki Onun gələcəyi özündən əvvəl gəlmiş olan Peyğəmbərlər tərəfindən müjdələnmişdi. Bu gerçəyi Uca Peyğəmbərimiz (s.ə.s) belə ifadə etmişdir: *"Mən Hz. İbrahimin duası, Hz. İsanın müjdəsi və anamın yuxusuyam"*.(Əhməd b.

Allahu Təala, bir insanda ola biləcək görünər-görünməz bütün yaxşılıqları, bütün üstünlükləri, bütün gözəllikləri həbibində yığmışdır. Onun heç bir hərəkətində, heç bir işində, heç bir sözündə, heç bir zaman, nə bir çirkinlik, nə də bir qüsur görülməmişdir. Hər Peyğəmbər öz zamanında, öz məkanında, öz qövmünün hər baxımdan ən üstünüdür. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s) isə, dünya yaradıldığı gündən qiyamətə qədər, hər zamanda, hər məkanda, gəlmiş və gələcək bütün varlıqların hər baxımdan ən üstünü, ən fəzilətlisidir.

Hənbəl, IV/127) Qurani Kərimdə isə bu xüsus belə xəbər verilməkdədir. Hz. İbrahim (ə.s) duasında: ***"Rəbbimiz! İçlərindən onlara bir Peyğəmbər göndər; onlara ayələrini oxusun, kitabı və hikməti öyrətsin və onları hər cür pislikdən təmizləsin. Şübhəsiz sən, mütləq güc sahibisən, hökm və hikmət sahibisən."*** demişdir (Bəqərə 2/129). Hz. İsa da (a.s) Onun gələcəyini belə müjdələmişdi: "Bir vaxtlar Məryəm oğlu İsa: ***"Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl gələn Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbəri müjdələyən elçisiyəm!"*** - demişdi. (Səf 61/6)

Budur Hz. İbrahimin duası, Hz. İsanın müjdəsi və Hz. Əminənin yuxusu olan Hz. Məhəmmədi (s.ə.s) Uca Allah Miladi 571-ci ilin 20 Aprelində, qəməri aylardan Rəbiül-əvvəl ayının 12-ci gecəsi səhərə qarşı aləmlərə rəhmət olaraq göndərdi. Qurani Kərimin ifadəsiylə Uca Allah bizləri belə müjdələyir: ***"(Ey rəsulum!)Biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik"*** (Ənbiya 21/107). Aləm, duyğu və ağıl yoluyla qavrana bilən və ya mövcudluğu düşünülə bilən, Allahın xaricindəki varlıq və hadisələrin hamısını ifadə edən bir termindir ki, bu ayeyi cəlilədə keçən "aləmin" sözüylə bütün varlıqların hamısı nəzərdə tutulmaqdadır. Yəni Uca Peyğəmbərimiz (s.ə.s) bütün varlıqlar üçün bir rəhmət vəsiləsidir.

Allahu Təala, bir insanda ola biləcək görünər-görünməz bütün yaxşılıqları, bütün üstünlükləri, bütün gözəllikləri həbibində yığmışdır. Onun heç bir hərəkətində, heç bir işində, heç bir sözündə, heç bir zaman, nə bir çirkinlik, nə də bir qüsur görülməmişdir. Hər Peyğəmbər öz zamanında, öz məkanında, öz qövmünün hər baxımdan ən üstünüdür. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s) isə, dünya yaradıldığı gündən qiyamətə qədər, hər zamanda, hər məkanda, gəlmiş və gələcək bütün varlıqların hər baxımdan ən üstünü, ən fəzilətlisidir. Cənabı Haqq Onu elə yaratmışdır. Bəli həqiqətən aləmlərə rəhmət olaraq göndərilmiş olan Uca Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s), bütün əxlaqı gözəlliklərlə bəzənib təchiz edilmiş və bütün qüsurlardan da təmizlənmiş olan tək nümunə və tək rəhbərdir. Onun bu xüsusuna işarə olaraq Uca Rəbbimiz belə buyurmaqdadır: ***"And olsun ki, Allahın Rəsulunda sizin üçün, Allaha və axirət gününə qovuşmağı ümid edənlər və Allahı çox zikr edən kəslər üçün gözəl bir nümunə vardır."*** (Əhzab 33/21)

Aləmlərə rəhmət olaraq göndərilən, kainatın baş tacı, əbədi rəhbərimiz, sevimli Peyğəmbərimizi layiqiylə izah etməyə nə kitablar yetər, nə də insanoğlu buna gerçək mənada qadir ola bilər.

Peyğəmbər Əfəndimizin şairlərindən Hassan b. Sabitin bu sözü nə qədər mənalıdır: *"Mən, Məhəmməd Mustafadan (s.ə.s) bəhs edərkən, Onu mədh etmirəm; əksinə Ondan bəhs etmək surətiylə, öz sözlərimi qiymətləndirmiş oluram." Çünki Onun məddahı Uca Allahdır".*

Aysel VAHABOVA



Mövlud Qəndili

Mövlud qəndili 14 əsr əvvəl dünyanı şərəfləndirmiş, üzü aydan parlaq, kəlamı qızıldan qiymətli olan bir Peyğəmbərin ümməti olmağın xoşbəxtliyini yaşadığımız gündür. 63 illik örnək bir həyatın başladığı və həyatımızın hər səhifəsinə işıq tutan o mübarək peyğəmbər Muhammməd Mustafanın (s.ə.s.) Allahın son elçi olaraq yer üzünə göndərildiyi gündür.

Mövlud lüğətdə "doğum yeri və zamanı" mənasına gəlir. Mövlud qəndili, iki cahan günəşi, aləmlərə rəhmət olaraq göndərilən Hz. Muhammməd Mustafanının (s.ə.s) dünyaya gəlməsinin il dönümüdür.

Hz. Muhammməd Mustafa (s.ə.s), Həbəşistanın Yəmən vilayət rəisi Əbrəhənin Kəbəni yıxmaq üçün Məkkəyə hücum etdiyi "Fil hadisəsi" ilində dünyanı şərəfləndirmişdir. Ərəblərdə bu tarix miladi 571-ci il, Rəbiüləvvəl ayının 12-si, bazar ertəsi, səhər vaxtıdır.

Qaynaqların verdiyi məlumata görə Allah Rəsulunun süd analarından biri də Süveybə xatundur. Bu xanım Rəsulullahın düşməni olan Əbu Ləhəbin cariyəsi idi. Süveybə xatun, Əbu Ləhəbə qardaşı oğlunun doğum müjdəsini xəbər verincə, Əbu Ləhəb sevincindən cariyəni azad edir.

Abbas (r.a.) bu hadisəni belə nəql edir:

Qardaşım Əbu Ləhəbi ölümündən bir il sonra yuxuda gördüm. Pis bir halda idi:

- Sənin lə necə rəftar edilir? - deyə soruşdum. Əbu Ləhəb:

- "Muhammədin doğumuna sevinərək Süveybə xatunu azad etdiyim üçün bazar ertəsi günü əzabım azaldılır. O gün baş barmağımın arasından kiçik bir dəlikdən çıxan su ilə sərinləyirəm",- cavabını verdi.

Mövlud qəndilində edilməsi tövsiyə edilən dua və ibadətlər:

1. Gündüz Oruc Tutmaq

Rəsullullah (s.ə.s.) doğulduğum gün oruc tuturam buyurmuşdur. Peyğəmbərimizdən (s.ə.s.) bazar ertəsi günü oruc tutmağın fəzilləti soruşuldu. O da belə buyurdu:

-"O gün, mənim doğulduğum, peyğəmbər olduğum gündür" (Müslim).

Bu hədisi-şərifə uyğun olaraq böyüklər Rəsulullahın (s.ə.s.) doğulduğu gün oruc tutmağın fəzilətli olduğunu bildirmişlər.

2. Salavat Gətirmək



Rəsullulaha (s.ə.s.) salavat gətirməyi Allah-Təala əmr etmişdir. Peyğəmbərimizin (s.ə.s.) dünyaya gəldiyi bu gecə də ən önəmli ibadət Ona (s.ə.s.) salavat gətirməkdir.

"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın! ("Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd; Əssəlamu əleykə əyuhənnəbi və rəhmətullahi və bərəkətuhu",- deyin!) (Əhzab, 56)

3. Qəza və Nafilə Namaz Qılmaq

Peyğəmbərimiz (s.ə.s.): *"Namaz gözümün nurudur"*,- buyurmuşdur. Haqq dostları bu gecələrdə namaz qılmağın əhəmiyyətinə diqqət çəkmişlər və namaz borcu olanların qəza namazı qılmalarını tövsiyə etmişdirlər. Qəza namazı olmayanların nafilə namaz qılmalarını bildirmişdirlər.

4. Qurani-Kərim Oxumaq

İbni Məsuddan (r.a.) rəvayət edildiyinə görə Rəsullulah (s.ə.s.) belə buyurdu:

"Kim Qurani-Kərimdən bir hərf oxuyarsa, onun üçün bir yaxşılıq savabı vardır. Hər bir yaxşılığın qarşılığında on savab var. Mən əlif, ləm, mim bir hərfdir demirəm. Əlif bir, ləm bir, mim də bir hərfdir".

5. Tövbə-İstiğfar Etmək

Bir müsəlman hər gün günahlarından peşman olaraq tövbə etməlidir. Mövlid qəndili də tövbə etməyə vəsilə olan müstəsna gecələrdəndir. Həzrəti Peyğəmbər (s.ə.s.): *"Mən gündə yüz dəfə istiğfar edirəm"*,- buyurur (Müslim).

6. Dua Etmək

Mübarək gecələr Allaha dua etmə zamanıdır. Ayəyi-kərimədə buyurulur:

"Əgər ibadətiniz olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar? Siz (Quranı və öz Peyğəmbərinizi) təkzib etdiniz. Buna görə də (nə dünyada, nə də axirətdə əzab) yaxanızdan əl çəkməyəcəkdir!" (Furqan, 77)

7. Sədəqə Vermək

Allah yolunda infaq etmək, sədəqə vermək insanı bəlalardan qoruyur. Bu mübarək gecə də sədəqə vermək üçün ən gözəl vəsilədir. Peyğəmbərimiz (s.ə.s.) zəngin, kasıb hər mömini infaqa təşviq edər, bir xurmadan başqa bir şeyi olmayan üçün də: *"Yarım xurma ilə də olsa, cəhənnəm atəşindən qorunun, onu da tapmasanız gözəl və xoş bir söz söyləyin"*,- buyurur (Buxari).

Gül açmaz bahar gəlməyincə...
Bülbül oxumaz baharda gül olmayınca...
Dünyaya gəldiyin gündür baharımız...
Gəlişinlə açdı güllər, nəğmələr oxudu bülbüllər, ya Rəsulallah!

14 əsr öncə gələn baharın küləyidir hər mövsüm könlümüzdə çiçək açdıran...

Məryəm DƏMİR

MƏNƏVİ RUZİMIZ... HƏBİBİMİZ...

Həyatda dəyər verdiklərimiz var...
Olmazsa olmazlarımız var...

Həyatımıza daxil olduqları üçün şükür etdiklərimiz, dualarımızda baş sırada andıqlarımız var...

Bəşərik... Sevməyi öyrətdi Mövlam... Övlad sevgisiylə, yoldaş sevgisiylə, ana-ata sevgisiylə, dost sevgisiylə...

Hz. Adəm (ə.s.) kainatda yaradılan ilk bəşər oldu. Allah-Təala Adəmdən (ə.s.) sonra Həvva anamızı yaratdı. Niyə ilk yaradılan dost yox, xanımı oldu?

Səbəb və hikmətlərindən biri də: "Sevməyi öyrənsin" - deyə... Xanımını sevsin, Allah-Təalanı sevməyi bilsin... Leyladan Mövlaya bir pillə olsun deyə...

Sevməyi öyrənəcəklərimizdən ikinci olaraq Rəsulullah (s.ə.s.) gəlir. Bəşəri sevgilər Onu sevməyi öyrənək deyə vardır. Əlbəttə, Rəsulullahı (s.ə.s.) çox sevdiyimizi söyləyir, könüldən salavatlarımızı çəkirik. Lakin həqiqi mənada könlümüzdəki yeri haradadır, görəsən?!

İllər əvvəl bir dostum:

- "Niyə gecə ibadətə qalxdığımızda gecə geyimimizlə deyil, təsəttürə bürünərək zikr çəkirik?" – deyə soruşmuşdu. Rəsulullah (s.ə.s.) bu qapıdan gəlsə, mənə "əssəlamu aleykum, övladım", desə, mən də ayağa qalxar və "aleykum salam və rahmətullahi və bərakətuh",- deyərəm, dedi.

- Deyə bilməzsən, dedim.

- Niyə, dedi.

Hörmət etdiyimiz, könlümüzün taxtına oturmuş dəyərli bir xocamız vardı.

- Xocamız gecə təhəccüddə gəlsə, bu qapıdan girsə, əssəlamu aleykum, övladım, desə, gecə geyiminlə qalxıb salamına qarşılıq verə bilərsənmi? - dedim.

- Xeyr, dedi.

Xülasə, bütün məsələ budur... Rəsulullahı (s.ə.s.) haqqıyla tanıya bilmirik, haqqıyla sevə bilmirik, haqqıyla həyatımıza daxil edə bilmirik. Haqqıyla sevə bilmədiyimiz üçün həyatımızdakı yerinin harada olduğunu tam mənasıyla idrak edə bilmirik.

Əgər elə olsa sevgisi digər sevgilərlə bir olmazdı. Əshab Rəsulullahı (s.ə.s.) andığı zaman ürəkləri elə titrəyərmiş ki, ürək döyüntülərini dayandırmaq üçün əllərini sinələrinin üzərinə qoyar ürəklərini sakitləşdirərdilər. Bizim təqlidlərimiz kimi deyilmiş... Əlbəttə, təqlidlər təhqiqə dönməsini niyaz edirik.



Hz. Mövlana bu sevgini necə ürəkdən, necə dərindən yazılara tökmüşdür. Bizə isə anlamaq, eşq ümmanından qabımız tutan qədər almaq qalır. Digər sevgilərin bir dəyərinin qalmadığını idrak edirik.

Ey dostum, ey dostum, ey başqa sığınacağa ehtiyac duymayan dostum, ey dilbərim, ey könül bağım olan dostum, ey məhrəm və sığınacağım. Ey yer üzündə bizə ay olan, ey gecə yarılarında bizə səhər olan, ey təhlükədə bizə sipər olan, ey şəkərlər dolu buludumuz.

Ruhumda çox gözəl yol alıb yer etdin sən, dərdimə çox gözəl məlhəmsən sən, ey din və imanım, ey cövhərlər dolu okeanım.

Ey qaranlıq gecələrin aydınlıq işığı, ey yolunu itirənlərin yol göstərəni, ey hər qafilənin qibləsi, ey karvanımın bələdçisi…

Sən mənim üçün Musanın Turusan, sən mənim üçün İsanın çətinliklərini dəf edənsən, həm nurumun nurunun nurusan, həm də Əhmədi-Muxtarımsan sən (Divani -Kəbir, 1/1798, s.630).

Rəsulullahın (s.ə.s.) həyata təşrifini idrak etdiyimiz, Mübarək Mövlüdü-Nəbini andığımız bu günlərdə Rəsulullahın (s.ə.s.) himayəsinə daha çox möhtacıq. İnsanlıq tarixi olaraq çətin günlər yaşayırıq. "Covid-19" deyə bilinən bir imtahanın içərisindəyik. Ətrafımızda böhranlar yaşayan insanlar var, boğuluram, nəfəs ala bilmirəm deyənlər var. Halbuki tək təsəlli qaynağımız Rəsulullahdır (s.ə.s.). Kaş ki, dizinin dibində olsaq, ürəyimiz Peyğəmbərimizin feyzi, nuru ilə dolsa… O andığımız hər yerdədir.

Psixoloqlar daxili rahatlıq üçün yatmadan əvvəl gözlərimizi bağlamağı və ən xoşbəxt olduğumuz yerə, ən çox sevdiyimiz insanla getməyimizi tövsiyə edir. Yaxşı, biz gecə olduğunda, hər yer səssizliyə büründüyündə, yanımızda kimsə olmadığında ruhumuzu kimin yanına göndəririk? Könlümüz kimin yanında rahat olur? Göz yaşlarımızı kimin çiyninə axıdırıq? Təəssüf ki, bəşəri sevgilərin daxili xoşbəxtliyi yerinə yetirəcək gücü yoxdur.

Gedək hər gecə Mədinəyə… Yaşıl qübbənin altına… Dərdləşək ən sevgiliylə… Rəsulullahın (s.ə.s.) feyzi daim, qiyamətə qədər davam edəcək.

Allah-Təala ayəyi-kərimədə:

"Halbuki sən onların arasında ola-ola Allah (sənə hörmət əlaməti olaraq) onlara əzab verən deyildir. (Tövbə edib) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!" (Ənfal, 33) - buyurur.

O zaman Peyğəmbərimiz

(s.ə.s.) andığımız hər yerdədir. Xoşbəxtlik qaynağımızı salavatlarımızla yanımızdan ayırmayaq. Özümüzə dönək, daxili dünyamızı təmizləyək. Sevilməyə ən layiq olanı ən başda qonaq edək.

Allah-Təala belə buyurur:

"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın!" (əl-Əhzab, 56)

Əsasən də, cümə günü salatu-salam ilə məşğul olmaq, çox fəzilətli bir ibadətdir.

Əbud-Dərda (radıyallahu anh) anladır:

Bir gün Rəsulullah (s.ə.s.):

–*"Cümə günü mənə çox salavat gətirin! Çünki o gün, mələklərin hazır və şahid olduğu bir gündür. O gün sizdən biriniz mənə salavat gətirdiyində, (bitirənə qədər) salavatı mələklər tərəfindən mənə təqdim edilir"* (İbn Macə) - buyurur. Mən:

–"Vəfatınızdan sonra da?" – deyə soruşdum. Peyğəmbərimiz (s.ə.s.):

–Bəli, vəfatımdan sonra da! Allah-Təala peyğəmbərlərin vücudlarını yeməyi yer üzünə haram qılmışdır. Allahın Nəbisi həyatdadır və daima ruziləndirilir", - buyurdu (İbni Macə, Cənaiz, 65; Əbu Davud, Salat 201/1047, Vitr, 26).

Həzrəti Əli (r.a.) bu xüsusda belə demişdir:

"Hər kim cümə günü Peyğəmbərimizə yüz dəfə salavat gətirərsə, qiyamət günü məhşər yerinə üzü çox gözəl və nurlu olaraq gələr. İnsanlar qibtə ilə, «Bu adam, görəsən, hansı əməli işləyib?» - deyə birbirlərindən soruşarlar" (Beyhaki).

Minlərlə şükrün az olduğu, vəfatından sonra da bizi ruziləndirən, Rəbiül-əvvəl ayında daha çox içimizə işləyən, şükür namazlarımızla ümməti olduğuna dualar etdiyimiz Rəsulumuz bizlərdən razı olar, inşallah… Mövlam Qiyamət günü gəldiyində ümmətimdən filankəs "üz ağımdır" dediklərindən etsin.

Amin.

Sənə gəldim

Sən möhtacsız, möhtaclı mən.
Sən ölümsüz, ölümlü mən
Sən səbirli, səbirsiz mən
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Məni də al yanına
İcazə ver baxım gül Camalına.
Günahlardan bükülmüşəm günahlarım böyükdür,
Sənin sonsuz mərhəmətin günahımdan böyükdür.
Sən nöqsansız, nöqsanlı mən,
Sən köməkçi, köməksiz mən,
Sən qüvvətli, qüvvətsiz mən,
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Al məni də sevdiyinin yanına
Günahkaram baxma mənim halıma
Qoy seyr edim o əbədi Cənnəti,
Qoy doyunca mən seyr edim Həbibin Muhammədi.
İki sual önündəyəm: ya Cəhənnəm, ya Cənnət
Günahkarlar gölündəyəm, Rəbbim, eylə mərhəmət.
Tövbəkaram, tövbələri qəbul et.
Qəlbim xəstə, yaralıyam məlhəm et.
Dayağım yox, dayaqsızam imdad et.
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Bir ürəkdə iki sevgi yer almaz.
Qəlbimin sahibi Sən, başqasına yer olmaz.
Sən verirsən, verdiklərin xəzinəndən azalmaz
Sənə gəldim hər halımla qəbul et.
Məni lütfə, məqamına layiq et.
Sən qoruyan, qorunan mən,
Sən bəsləyən, bəslənən mən,
Sən vəfalı, vəfasız mən,
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Qapılardan qovulmuşam, son hədəfim bu qapı,
Artıq daha yorulmuşam, tək ümidim bu qapı,
Hər halıyla qullarının üzərinə açılacaq tək qapı,
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Nə çox imiş bu qapını tanıyan,
Bu keçiddən Cənnətinə adlayan
Sənsən yalnız məzlumları anlayan
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Çəkisi ağır gələn daş asılıb ürəyimə
Həyatımın imtahanı yüklənibdir kürəyimə
Yalvarıram kitabımı Sən ver mənim sağ əlimə
Sənə gəldim qapındayam, aç qapını, qəbul et.
Sənsizlədim Sənə gəldim, aç qapını, qəbul et...

SEYİDLİ Ülviyyə

Samirə MAHMUDOVA

Bəşəriyyətin Xilaskarı



XIV əsrdən bəri dünyanın hər yerində milyardlarla insanın hər gün xatırladığı, salam göndərdiyi, sevgi və ehtiramla yad etdiyi yeganə insan Muhammməd Mustafa aleyhissalatu vəssəlamdır. O, həyatının hər bir anı ən incə detalınadək təsbit edilərək öyrənilmiş, qiyamətə qədər gələcək ümməti üçün ölçülməyən bir xəzinə qoyub gedən yeganə insan, yaradılmışların ən xeyirlisidir. Onun bütün əməlləri, söz və davranışları ən incə ayrıntılarına qədər qeyd edilərək tarixdə bir şərəf lövhəsi kimi qalmış, nəinki İslam ümməti, hətta müxtəlif din, əqidə mənsubları, alimlər, natiqlər, şairlər, tanınmış dövlət adamları və sərkərdələr belə bu mübarək insanın həyatını və təbliğ yolunu oxuyaraq ona olan heyranlıqlarını gizlədə bilməmişlər. Onun bu dərəcə sevilməsinin və dəyər görməsinin səbəbi Rəbbi tərəfindən yetişdirilərək bütün insanlığa qiyməti ölçülməyəcək bir miras - əxlaq və ədəb toplusu qoyub getməsidir.

İllər keçmiş, əsrlər ötmüş lakin İslam ümmətinin və bütün insanlığın xilaskarı olan bu mübarək insan hələ də yaşadığı sadə və təvazökar həyatı, o dövrün ən alt sosial təbəqələrinə mənsub olan və az qala heyvan münasibəti görən qullara, kölələrə münasibəti, dürüstlüyü və hədsiz comərdliyi, liderlik qabiliyyəti və siyasətilə Avropalı alimlər tərəfindən alqışlanır, haqqında saysız – hesabsız kitab və məqalələr dərc olunur. Onların gözündən bu mübarək insana verilən dəyər və hörmətin nə səviyyədə olduğunu bir daha anlamaq üçün yazımızı onların peyğəmbərimiz haqqında fikirləri ilə davam etdirmək istəyirik.

William Montgomery Watt 1953–cü ildə

Oksford şəhərində yazdığı "Məkkəli Muhammməd" əsərində belə deyir:

"Öz inancına görə bütün təqiblərə məruz qalması, ona inanan və bir rəhbər kimi ona güvənən insanların yüksək mənəviyyatı və onun son dərəcə üstün nailiyyətləri əldə etməsi, bunların hamısı bu insanın tam kamilliyini isbat edir. Onun yalançı olduğunu iddia etmək vəziyyəti daha da qəlizləşdirər. Tarixin böyük şəxsiyyətləri arasında heç kəs Qərbdə Muhammməd kimi bu qədər səhv dəyərləndirilməmişdir. Keçmişdən qalan səhvlərə baxaraq unutmamalıyıq ki, məntiqi nəticə üzrə olan sübutlara doğrular kimi sığınmaq, istənilən uydurulmuş nağıllardan daha güclü ehtiyac təşkil edir".

Örnək həyatı, sadəliyi və yaşadığı müddət boyunca sərgilədiyi əxlaqi davranışlarına heyran qalan yazıçı Vaşinqton İrvinq 1849-cu ildə qələmə aldığı "Muhammməd və Onun Davamçıları" adlı əsərində peyğəmbərimizin insani keyfiyyətlərini belə ifadə edir:

"O, təkəbbürün və dəbdəbəli geyinməyin əleyhinə idi. Onun sadəliyi geyiminə də öz təsirini göstərmişdir. Yemək-içməyinə diqqət edən bu peyğəmbər, nəfsinə hakim olaraq daima oruc tutardı. O, ayrı-seçkiliyə yol verməmiş və davranışlarında həmişə ədalət prinsipinə riayət etmişdir. Dostlarına və yadlara, varlıya və yoxsula, güclüyə və məzluma, eyni tərzdə ədalətli münasibət göstərirdi. Məzlumları qəbul edib şikayətlərini səmimiyyətlə dinlədiyinə görə adi insanlar tərəfindən çox sevilirdi".

Məşhur fransız yazıçısı Alfons De Lamartin 1854-cü ildə "Histoire De La Turquie" adlı əsərində peyğəmbərimizə olan heyranlığına geniş yer verərək belə yazır:

"Heç bir insan belə az vasitələrlə insan gücünü aşan bir iş görməmişdir. Muhammədin belə böyük bir ideyanı həyata keçirmək üçün özündən və səhranın bir kənarında yaşayan bir neçə kişidən başqa bir köməyi yox idi. Nəhayət, heç bir insan dünyada heç bir vaxt belə bir böyük və davamlı inqilab həyata keçirməmişdir. Belə ki, yaranmasından iki əsrdən də az bir müddət keçməsinə baxmayaraq, İslam, inanc və ərazi baxımından bütün Ərəbistan, İran, Xorasan, Fransız Saksoniyası, Qərbi Hindistan, Suriya, Misir, Həbəşistan, Şimali Afrika qitəsinin tanınmış əraziləri, Aralıq Dənizinin çoxsaylı adaları, İspaniya və Körfəz ərazisinin bir çox hissəsi üzərində hakimiyyətini elan etmişdir. Əgər məqsədin böyüklüyü, vasitələrin azlığı və nəticənin əzəməti insan dahiliyinin üç ölçüsüdürsə, müasir dünyanın ən böyük şəxsiyyətlərini belə Muhammədlə müqayisə etməyə kimin cürəti çatar?"

Filip K. Hitti "Ərəblərin Tarixi" adlı əsərində:

"Qısa həyatı boyu coğrafi anlamdan başqa heç bir məna kəsb etməyən, dövlət kimi bilinməyən bir toplumu önə çəkməyi bacaran Muhammməd olmuşdur".

Lorens İ. Braun 1944 cü ildə yazdığı "İslamın Perspektivləri" adlı əsərində peyğəmbərin başçılığı altında müsəlmanlar tərəfindən alınan ərazilərin guya "qılınc gücünə alındığı" iddiasının çox gülünc olduğunu qeyd edir.

1936-cı ildə "Həqiqi İslam" adlı kitabının I cildində Ser Corc Bernard Shou Muhammməd aleyhissalatu vəssalamın örnək şəxsiyyəti və yürütdüyü təbliğ yolu haqqında bunları yazır:

"Əgər hər hansı bir dinin növbəti 100 il ərzində İngiltərənin və ya Avropanın üzərində hökmranlıq etmə şansı olsaydı, onda bu, İslam olardı. Mən Muhammədin dininin haqq olduğuna və onun möhtəşəm canlılığına şahid olmuş, buna görə də bu məsələdə həmişə yüksək fikirdə olmuşam. Mənə görə bu yeganə dindir ki, bəşəriyyətin dəyişən mərhələlərinə uyğunlaşmaq qabiliyyətinə malikdir. Hər dövrdə özünə etimad qazana bilir. Peyğəmbərin həyatını araşdırmışam. O çox gözəl insandır. Dinsiz bir insan kimi mənim fikrimcə, ona bəşəriyyətin xilaskarı adını vermək lazımdır. İnanıram ki, əgər onun kimi bir insan müasir dünyanın hökmranlığını ələ alsaydı, dünyanın problemlərini həll etmək üçün o çox ehtiyac duyduğumuz sülhə və əmin-amanlığa müvəffəq olardı. Mən proqnoz vermişəm ki, Muhammədin dini bugünkü Avropada

qəbul edilməkdə olduğu kimi, sabahkı Avropada da rəğbət görəcəkdir".

1978 ci ildə dünyanın "100 ən Nüfuzlu Şəxsiyyəti" kitabının müəllifi olan Michael Hart peyğəmbərimiz haqqındakı fikirlərini belə ifadə edir:

"Mənim Muhammməd peyğəmbəri dünyanın ən görkəmli və nüfuzlu şəxsiyyətləri sırasında I yerə layiq görməyim çoxlarını təəccübləndirə bilər. Bu fikir bəzi oxucular üçün sual işarəsi olaraq qalacaq. Lakin o, tarixdə həm dini, həm də dünyəvi cəhətdən inanılmaz uğurlara imzasını atan yeganə şəxsiyyətdir. Ehtimal olunur ki, Muhammədin İslam dini üzərində nisbi təsiri İsa ilə müqəddəs Pavelin xristianlıq dininə birgə təsirindən daha güclüdür. Məhz bu, bir-birindən ayrılmayan din və dünya təsirinə görə zənn edirəm ki, Muhammməd bəşər tarixində olan yeğanə nüfuzlu şəxsiyyət titulunu daşımağa daha çox layiqdir".

"Qəhrəmanlar, Qəhrəman İbadəti və Tarixdə Qəhrəmanlıq" kitabının müəllifi (1841-ci ildə Londonda) Tomas Karlayl:

"Səssiz və böyük bir varlıq! Məqsədi dünyanı aydınlatmaq idi. Bu şəxsin ətrafına yığılan yalanlar Qərb dünyası üçün sadəcə bir ayıbdır.

Mahatma Qandi 1924-cü ildə "Gənc Hindistan" qəzetinə verdiyi müsahibədə peyğəmbərimiz haqqında bu cümlələri ifadə etmişdir:

"Milyonlarla insanın qəlbində təsirə malik olan bir insanı öyrənmək istədim. İslamın fəthinin qılınc gücü ilə deyil, yaşadıqları örnək həyat tərzi ilə qazanıldığını daha yaxşı anladım. Peyğəmbərin təvazökarlığı, sadəliyi, əhdə bağlılığı, comərdliyi, dürüstlüyü, dost və səhabələri ilə sıx bağlılığı, yerinə yetirdiyi missiyanın üstünlüyü və aliliyindən irəli gəlirdi. Əslində ona hər maneəni aşdıran, zəfər qazandıran da bu idi. Yoxsa heç bir qılınc gücü deyildi. Mən "Peyğəmbərin Tarixi" adlı kitabın üç cildini oxuyub bitirəndə çox heyfsləndim ki, daha bu insan haqqında oxuyacaq bir şey qalmadı".

"Saracen İmperiyasının Tarixi" kitabını yazan Simon Okli peyğəmbərimiz haqqındakı düşüncələrini əsərlərində belə ifadə edir:

"Onun Məkkə və Mədinədə həkk etdiyi eyni saflıq və mükəmməl təəssürat 12 əsr boyunca baş vermiş çevrilişlərdən sonra da İslamı qəbul etmiş hindistanlılar, afrikalılar və türklər tərəfindən qorunub saxlanılmışdır. Müsəlmanlar dinlərindən və insani hislərindən uzaqlaşmadılar. Peyğəmbərə hörmət heç vaxt azalmamış, eyni zamanda ona olan hörmət və sevgi insan əxlaqının ölçülərinin heç vaxt önünə də keçməmişdir. Bu faktor İslamın bəyan etdiyi sadə və dəyişilməz ifadədir. Mən şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur".


Anni Besant 1932-ci ildə Madras şəhərində qələmə aldığı "Muhammədin Həyatı və Nəsihətləri" əsərində yazır ki:

"Ərəb dünyasının böyük peyğəmbərinin həyatı və xarakterini öyrənən, onun necə öyrətdiyini və necə yaşadığını bilən bir şəxsin bu qüdrətli peyğəmbərə hörmət hissindən başqa bir hissi duyması mümkün deyil. Baxmayaraq ki, qeyd etdiyim fikirlər çoxlarınıza tanış ola bilər. Yenə də oxuduğum zaman mən yeni heyranedici üsul və bu qüdrətli ərəb müəllimə qarşı bir ehtiram hissi duyuram".

Son Peyğəmbər və qurtarıcı, həyatı, davranışı və insanlığa örnək münasibəti ilə milyardların qəlbində özünəməxsus bir yeri olan bu mübarək lider haqqında yazılan əsərlər çoxdur. Qeyd etməklə qurtarmaz. Son olaraq Professor, Psixatriya Qrupunun Lideri, Culis Masermanın məqaləsində Muhammməd aleyhissalatu vəssalama duyduğu hörmət və verdiyi dəyəri də qeyd etməklə mövzunu yekunlaşdırmaq yerində olar:

"Pastor və Salk kimi insanlar birinci dərəcəli liderlərdir. Qandi və Konfutsi, İskəndər və Sezar kimi insanlar ikinci dərəcəli insanlardır. İsa və Budda yalnız üçüncü kateqoriyaya aiddirlər. Bəlkə də bütün dövrlərin ən böyük lideri, özündə üç dərəcəni birləşdirən Muhammməddir. Ondan aşağı dərəcədə missiyanı yürüdən Musa idi".

Fatimə ZƏHRA



Rəsulullahı (s.ə.s.) niyə çox sevməliyik?

Dinin eşq, həvəs və şövq ilə yaşana bilməsi üçün Quran və Sünnəni həyatın hər mərhələsinə yaymaq vacibdir. Belə bir mənəvi təkamül üçün ən mühüm vəsilə ürəyin "iman məhəbbəti" ilə dolmasıdır. Çünki bu sevgi Allaha və Onun Elçisinə itaəti, İslam yolunda fədakarlıq göstərmə gücünü artırır.

Məhəbbətin mənşəyi "əl-Vədud" olan Allah-Təaladır. O yaratdığı hər bir insanın qəlbinə ilahi məhəbbətin toxumunu atmışdır. Bu baxımdan Haqqa vüslət yolçuluğunda möminin ən əhəmiyyətli vasitəsi, yaradılışından gələn bu məhəbbət istedadıdır. Ancaq məhəbbətin həqiqisi və məcazisi vardır. Həqiqisi Allah məhəbbəti, məcazisi isə Allahdan qeyrisinə duyulan məhəbbətlərdir.

Əsasən, Allah-Təalanın razı olduğu şərtlər daxilində yaşanan məcazi məhəbbətlər də həqiqi məhəbbətə bir addımdır. Təki məcazi məhəbbətlər ürək üçün son dayanacaq olmasın!

Çünki mal-mülk, vəzifə, mövqe, ailə və övlad kimi, məşru olsa da, fani məhəbbət mərhələlərindən birində ilişib qalaraq bunları Allaha vüslət yolçuluğunda son dayanacaq olaraq qəbul etmək, Allaha məhəbbət üçün yaradılmış olan könlün və məhəbbət sərmayəsinin ziyan edilməsi deməkdir.

Allaha və Onun Həbibinə məhəbbət ehtiyacını hiss etməyəcək qədər qatılaşmış bir qəlbin Allah qatında nə qiymət və şərəfi ola bilər ki? Bax, əsl təhlükə də qəlbi və məhəbbət istedadını layiq olmayan varlıqlara həsr edərək ziyan etməkdir. Çünki hər bir insan həyatda məhəbbət duyduğu varlığa uyğun nisbətdə mənəvi bir səviyyəyə çatır.

Məhəbbəti layiq olmayan yerlərə sərf etmək, sanki şəffaf bir bulağın bataqlığa və ya çirkaba tökülməsi kimi fəlakətli bir haldır.

Sonu Allaha çatmayan, yanlış ünvanlarda axtarılıb boşa gedən bütün məhəbbətlər faydasız yorğunluğa və ruhun ağırlaşmasına səbəb olur.

Məhəbbətdəki son məqsəd, qəlbin Rəsulullahın məhəbbətində dərinləşərək "Haqqa vüslət"ə çatmasıdır. Çünki bəndəni Allah sevgisinə aparacaq yeganə rəhmət və məhəbbət bulağı Peyğəmbərimizdir.

Rəsulullah bizim ən böyük könül sərvətimizdir. Bütün dünya nemətləri bizim olsa, amma Allah Rəsulunu tanımamış olsaydıq, bunun nə qiyməti olardı?! Çünki bu dünyadakı ömrümüz də, dünya da faniliyə məhkumdur. Ancaq Rəsulullahı tanıyıb Ona ürəkdən tabe olmağın gətirəcəyi xoşbəxtlik və səadət isə əbədidir.

Bu baxımdan insanın məhəbbət mərhələlərində əldə edilə biləcək zirvə də, Rəsulullaha duyulan məhəbbətdir. Ona məhəbbət və hörmət göstərmədən Peyğəmbərimizi həqiqi mənada tanımaq da, Ondan layiqincə faydalanmaq da mümkün deyil. Çünki tanımaq üçün yaxınlaşmaq, yaxınlaşmaq üçün də sevmək şərtdir.

Həmçinin məhəbbətin şiddəti ölçüsündə aşiq ilə məşuq arasında bir hissiyyat oxşarlığı var. *"İnsan sevdiyi ilə bərabərdir"* hədisi-şərifi də (Buxari, Ədəb, 96) bu qəlbi bərabərliyi ifadə edir. Başqa sözlə, sevən sevgisi nisbətində sevdiyinə bənzəməyə və onun şəxsiyyətindən pay almağa başlayır.

Peyğəmbərimizə bəslənən məhəbbət ibadətlərə xuşu, bəşəri davranışlara nəzakət, əxlaqa zərafət, qəlblərə incəlik, simalara nuraniyyət, dillərə hikmət və nəzərlərə ibrət olaraq əks edər.

Rəsulullahdan alacağımız ən vacib mənəvi təhsil daxili dünyamızı Onun könül dünyasındakı hissiyyat ilə müştərək hala gətirə bilməkdir. Həqiqətdə Rəbbimiz öz eşqi və bağışlamasını Peyğəmbərimizə itaət şərtinə bağlamış olduğunu belə bəyan edir:

"(Ey peyğəmbər!) De: "Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir" (Ali İmran, 31).

Bundan əlavə, Allah Rəsuluna olan qəlbi yaxınlığımız hissiyyat, düşüncə tərzi, hal və fiziki bərabərliyimiz - bir sözlə məhəbbətimiz ilahi əzabdan da qurtuluş vəsiləmizdir. Çünki Allah Təala belə buyurur:

"Ancaq sən onların arasında ikən Allah onlara əzab verəsi deyil. Onlar bağışlanmalarını diləyərkən də Allah onlara əzab verəsi deyil" (əl-Ənfal, 33).

Mərhəmətdən yoxsul, məhəbbətdən uzaq düşən hazırkı dövrdə şəfqət, başqasını düşünmə və s. bunun kimi gözəl xüsusiyyətlər unudulmağa doğru getdiyi üçün gözəl əxlaqı tamamlamaq üçün göndərilmiş olan o Rəhmət Peyğəmbərinin həyat verən düsturlarına hər zamankından daha da çox möhtacıq. Xüsusilə bu axır zaman həngaməsində hər keçən gün bir öncəkindən daha çox möhtacıq.

Çünki aləmlərə rəhmət olaraq göndə

rilən Peyğəmbərimizlə bərabər olmayan hər dövr cahiliyyə dövrüdür.

Onunla birlikdə döyünməyən hər ürək dərin bir qəflət qaranlığındadır.

Onu təqdir etməyən hər vicdan acınacaqlı vəziyyətdədir.

Buna görə də ürəyimizdəki heç bir sevgi Allah və Rəsulullah sevgisinin önünə keçməməlidir. Nə mal-mülk, nə övlad, nə də can sevgisi…

Unutmayaq ki, Rəsulullah bizim ən böyük könül sərvətimizdir. Bütün dünya nemətləri bizim olsa, amma Allah Rəsulunu tanımamış olsaydıq, bunun nə qiyməti olardı?! Çünki bu dünyadakı ömrümüz də, dünya da faniliyə məhkumdur. Ancaq Rəsulullahı tanıyıb Ona ürəkdən tabe olmağın gətirəcəyi xoşbəxtlik və səadət isə əbədidir.



Qəlbləri bu şüur və idrak ilə yoğrulmuş olan əshabı-kiram, Peyğəmbərimizin ən kiçik bir arzusunu belə yerinə yetirmək üçün böyük bir eşqlə daima:

"Canım, malım, hər şeyim sənə fəda olsun, ya Rəsulallah!"- demişlər.

Bu bir həqiqətdir ki, müstəsna bir yaradılış möcüzəsi olan Peyğəmbərimizi hərtərəfli idrak edə bilməyimiz mümkün deyildir.

Bu aləmdən alınan təəssüratlar onu dərk etməyə kifayət etmir. Çünki sahili olmayan bir ümmanı bir bardağa sığdırmaq imkansızdır.

Peyğəmbərimizin əzəməti qarşısında bizim idrakımız, yüksək metafizika hadisələrini qavramaq xüsusunda bir uşağın sahib olduğu idrakdan fərqsizdir. Çünki Allah Sevimli Rəsuluna elə böyük bir mövqe lütf etmişdir ki, insanların o əziz Peyğəmbərin fəzli-kamalına bütünlüklə vaqif olmağı da, Onu kəlmələrin məhdud imkanları ilə tam olaraq izah edə bilməsi də mümkün deyildir. Onun dilimizdəki ifadəsi də ancaq dəryadan bir damla qəbilindəndir.

Çünki o elə bir rəhmətdir ki, bütün varlıqlar onun hörmətinə yaradılmış və ona olan məhəbbəti nisbətində Allah qatında qiymətli olmuşdur.

O elə bir rəhmətdir ki, o olmasa, bütün aləmlər tənha çöllərə dönərdi.

O elə bir rəhmətdir ki, yaradılışın başlanğıcı onun nuru ilə vücuda gəlmiş, bütün peyğəmbərlər onun nurunun feyz və bərəkətini daşımışlar.

O elə bir rəhmətdir ki, harada bir gözəllik varsa, ondan bir əksdir. Aləmdə bir çiçək açılmaz ki, onun nurundan olmasın! O ki solmayan, əksinə, gün keçdikcə canlılıq və təravəti daha da artan nurdan ibarət bir ilahi qönçədir.

Buna görə də səhabəyi-kiram, Allah dostları, ariflər və salehlər qəlb aynalarında ən saf və lətif naxışlar görülə bilsin deyə ruhlarını daim onun məhəbbət nuruyla parlatmışlar.

Rəbbimiz "könüllər sultanı" Peyğəmbərimizin feyz və ruhaniyyətindən hissələr ala bilməyi, bir ömür onun halıyla hallanma səyi içində qala bilməyi cümlələrimizə lütfü kərəmiylə ehsan etsin.

Amin!

Qeyd: *Bu yazı Möhtərəm Osman Nuri Topbaşın əsərləri əsasında yazılmışdır.*

Aygün MƏMMƏDZADƏ

«Ən gözəl adlar (Əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin...»
(Əraf, 180)

ƏL-HƏKİM

(Hikmət sahibi)

Əl-Həkim bütün işləri yerli-yerində və əskiksiz olan, hökm və hikmət sahibi, əşyanın, baş verənlərin, bir sözlə, hər şeyin həqiqətini bilən deməkdir.

"Həqiqətən, Rəbbin (qiyamət günü haqq-hesab çəkmək üçün) onları bir yerə yığacaq. O, hikmət sahibidir, (hər şeyi) biləndir!" (Hicr, 25)

Allahın hər əmrinin mütləq bir hikməti var. Biz aciz qullar anlamasaq və qavramasaq da hər şeyin, bütün yaradılanın bir hikməti var. Onun qadağan etdiyi hər şeyin, "bunları etməyin", "bunlardan uzaq durun" dediyi hər şeyin bizim bilmədiyimiz bir çox hikməti var.

Tibb dünyası inkişaf etdiyi hər mərhələdə Allahın qullarına halal etdiyi xüsusların faydalarını, ya da haram etdiklərinin zərərlərini açıqlamaqdadır.

Biz insanlar işlərin önünü və arxasını bilmirik. Vaxtı ancaq içində olduğumuz "an" ilə yaşayır, bir dəqiqə sonra belə nə ola biləcəyini düşünə bilmirik.

Onun üçün də nəyin doğru, nəyin səhv, nəyin zərərli, nəyin faydalı olduğunu Rəbbimiz, Hz. Peyğəmbər (s.ə.s) vasitəsilə bizə bildirmişdir. "Ağıl" verdiyi quluna, ağılın çox aciz qaldığı nöqtələrdə özünə sığınıb Qurana və Peyğəmbərə tabe olmağı əmr etmişdir. Çünki ağıl sadəcə bir vasitədir.

Allahın yaratdığı hər şey Onun elmindən və hikmətindən qaynaqlanır.

Hikmət: iradənin, ədalətin, rəhmətin, ehsanın, comərdliyin, yaxşılığın və ən gözəl yönləri ilə əşyaları yerbəyer etməyin kamilliyini əhatə etməkdir.

Hikmət elmlərin ən böyüyüdür. Elmin ucalığı da bilənin böyüklüyü ilə ölçülür. Eyni zamanda hikmət elmdən daha dərindir, çünki elm hikmətin ölçüsü nisbətində öz əksini tapır. Hikmət nəzəri elmləri əldə etdikdən sonra Allahın lütf və kərəmi ilə qazanılan ruhi yetkinlik söz və davranışlarda da əks olunur. Nəticə olaraq, hər hikmət sahibi alimdir, ancaq hər alim hakim deyildir.

"Həqiqətən, Loğmana: "Allaha şükür et!" (deyə) hikmət verdik. Kim (Allahın nemətlərinə) şükür etsə, özü üçün şükür edər. Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir, (özlüyündə) şükürə (tərifə) layiqdir! (Onun bütün işləri bəyəniləndir!)" (Loğman,12)

Loğman (ə.s.) da hikmət sahibi idi. Rəvayət edilir ki, bir gün Davud (ə.s.) Loğmandan (ə.s.) qoyun kəsib ən yaxşı yerindən ət gətirməsini istədiyində, heyvanın dilini və ürəyini gətirmişdi. Bundan bir neçə gün sonra Davud (ə.s.) heyvanın ən pis yerindən iki parça ət istədiyində də Loğman (ə.s.) yenə dil və ürək gətirmişdi. Davud (ə.s.) bu işin səbəbini soruşanda Loğman (ə.s.) belə cavab vermişdi.


"Dil və ürək yaxşı olarsa bundan daha gözəl nə ola bilər? Amma dil və ürək pis olarsa, bundan da pis nə isə ola bilərmi?"

Allah-Təala qullarına hikmətlərlə dolu kitabını göndərəndir və bizdən kitabın ayələri ilə hökm etməyi istəyir. Allahın yaratdığı hər şeydə bir elm və sirli hikmət vardır.

"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et..." (Nəhl, 125)

Ya Həkim! Sənin bizə öyrətdiklərindən başqa heç nə bilmirik. Şübhəsiz, Sən Alim və Həkim olansan! Bizi hikmətinlə taclandır, elminlə bəzə, sevginlə qanadlandır. Amin!

Prof. dr. Nəcdət TOSUN



Hacəgi İmkənəgi

Dərviş Muhammədin oğlu olub hicri 918-ci ildə (m. 1512) anadan olan Hacəgi İmkənəgi, gəncliyində Səmərqənd və Buxara mədrəslərində dini təhsil almış, digər tərəfdən də atasından mənəvi təhsil almışdır. Atasının vəfatından sonra xəlifəsi kimi xalqı irşada başladı. Dövrün idarəçisi Şeybani hökmdarlarından Abdullah Xan (991- 1006/ 1583 – 1598) ilə yaxın münasibətlər qurdu.

Rəvayətə görə, dövrün idarəçisi Abdullah Xan bir gecə yuxusunda Hz. Peyğəmbərin malikanəsinə getdiyini görmüşdü. Malikanənin qapısındakı möhtərəm şəxs bəzən içəri girib bayırdakı insanların vəziyyətini Hz. Peyğəmbərə ərz edir və ondan xəbər gətirirdi. Bir müddət sonra bu şəxs Peyğəmbərin göndərdiyi qılıncı gətirib Abdullah Xanın belinə bağladı. Abdullah Xan ayılan kimi yuxuda gördüyü bu şəxsi axtarmaq üçün tədbirlər gördü və sonunda onun Hacəgi İmkənəgi olduğunu anladı. Ona böyük hörmət göstərib hədiyyələr vermək istədi. İmkənəgi bunları qəbul etmək istəmədikdə **“Allaha, Rəsuluna və sizdən olan idarəçilərə itaət edin”** (ən-Nisa, 4, 59) ayəsini xatırlatdı. İmkənəgi də hədiyyələri qəbul etmək məcburiyyətində qaldı. Bu hadisədən sonra Abdullah Xanın hər səhər İmkənəgini ziyarət etdiyi nəql edilir.

Hacəgi İmkənəgi Mavəraunnəhrdəki dövlət idarəçiləriylə yaxın münasibətlər qurmuş və xüsusilə Şeybanilərdən sonra Canoğullarının iqtidara gəlməsində xüsusi rolu olmuşdur.

Rəvayətə görə, mədrəsə tələbələrindən üç nəfər Hacəgi İmkənəgini ziyarət üçün yola çıxmışdılar. Biri: “Əgər şeyxin kəraməti varsa, bizə “filan” yeməkdən ikram etsin”,- deyə düşündü. Digəri də eyni şeyi düşünərək: “Bizə “filan” meyvəni ikram etsin”,- deyə ürəyindən keçirdi. Üçüncüsü isə: “filan” nur üzlü uşaq o məclisdə olmuş olsun”,- deyə düşündü. İmkənəginin məclisinə çatdıqda ilk iki şəxsin istədikləri yeyəcək və meyvənin hazır olduğu, üçüncünün isə tələbinin mövcud olmadığı görüldü. Bunun üzərinə İmkənəgi: “Dərvişlər mənəvi hallara və

kəramətlərə çatırlarsa, bunu dini əmrlərə riayət etməklə qazanırlar. Onlardan qeyri - məşru bir şey istəmək doğru deyil. Hətta məşru belə olsa, onları imtahan niyyətiylə yanlarına gəlmək uyğun deyildir",- dedi.

İmkənəginin bir müddət Nəqşibəndi şeyxi Əhməd Kasaninin söhbətində olduğu, onun vəfatından sonra oğullarına baş sağlığı vermək üçün Dehbidə getdiyi nəql edilir. Rəvayətə görə, Kasaninin oğullarından Hoca İshaq Dəhbidi (ö. 1008/ 1589 – 1600) bir gün mənim müridim ya da xəlifəm olun təklif etmək niyyətilə cübbələrindən birini Hacəgi İmkənəgiyə geyməsi üçün göndərmişdi. İmkənəgi, görünür, bunu həqarət kimi qəbul etmiş ki, Hacə İshaqın məclisinə gedib hiddətlə buna münasibət bildirib. Bunun üzərinə, Hacə İshaq üzr istəmək məcburiyyətində qaldı.

İrşad həyatından ən az bir bölümünü Səmərqənddə keçirdiyi anlaşılan İmkənəginin təsəvvüfi söhbətlərini məsciddə apardığı və təkkə qurmadığı qeyd edilməkdədir. Misafirlərinə şəxsən özü xidmət göstərdiyi, yaşlı olmağına baxmayaraq, süfrəni özü açdığı, əzmkarlıqla əməl etməyə önəm verdiyi və dini əmrlərə son dərəcə bağlı olduğu ifadə edilməkdədir.

O dönəmdə söhbət məclislərində Məsnəvi oxumağa önəm verən Nəqşibəndi qolu Qasanilər idi. Bunlar səma və rəqsə də icazə verirdilər. Sanki Məsnəvi oxumaq səma və rəqsə müsbət baxmağın simvolu halına gəlmişdi. İmkənəgi bu səbəblə söhbətlərində Məsnəvi yerinə, Mişqat oxumağa üstünlük verərdi. Ancaq bu vəziyyət Məsnəviyə qarşı deyil, səma və rəqsə qarşı olan münasibətilə bağlı idi.

Hz. Hacəgi İmkənəgi 90 yaşlarında ikən, 1008- ci ildə (1600) vəfat etdi. Qəbri bu gün Özbəkistanda, Səmərqəndin cənubunda Qaşqadərya bölgəsindəki Şəhri-Səbzin Kitab nahiyəsində olan İmkənə kəndindədir. Mənəvi əmanət olan irşad vəzifəsini Muhammməd Baqi Billaha ötürmüşdür.









Osman Nuri TOPBAŞ

KÖNÜL QAZANMAQ ÜÇÜN

Allah-Təala qurtuluşa qovuşan möminlərin vəsflərini zikr edərkən: **“O kəslər ki, lağlağıdan (lüzumsuz şeylərdən, qadağan olunmuş əməllərdən) üz döndərərlər”** (əl-Muminun, 3) buyurur.

Rəsulullah (s.ə.s.) də, bir müsəlmanın lüzumsuz işlərlə vaxtını ziyan etməsini arzu etməzdi. Daima bir könül qazanmağın arxasınca qaçmaq lazım olduğunu qəlblərə nəqş edə bilmək üçün əshabına tez-tez bu üç sualı yönəldərdi:

“Bu gün bir yetim başı oxşadınızmı?”

“Cənazə yola saldınızmı?”

“Bir xəstə ziyarətinə getdinizmi?” (Müslim, Fədailüs-Sahabə, 12)

Çünki Allah-Təalanın rizasına talib olan şəxsin:

“Yer üzündəkilərə mərhəmət edin ki, göy üzündəkilər də sizə mərhəmət etsin!” (Tirmizi, Birr, 16, Ebu Davud, Ədəb, 58) bəyanının həqiqətinə çatması üçün matəmlərin ətrafında gəzməsi şərtdir.

Belə ki, rəvayətə görə Musa (ə.s.) bir gün:


–“Ya Rəbb! Səni harada axtarım?” – deyə niyaz edincə, Allah-Təala ona belə buyurdu:

–“Məni qəlbi qırıqların yanında axtar!” (Əbu Nuaym, Hilyə, II, 364)

Günümüzdə də bu ictimai ibadətlərə xüsusilə diqqət etmək bir möminin ən mühüm vəzifələrindəndir.

Əvvəla, “yetimlə maraqlanmaq”, dövrümüzün ən büyük xəstəliklərindən biri olan qəlb qatılığının reseptidir.

Bu həqiqəti Rəsulullah (s.ə.s.) belə bəyan etmişdir:



"Əgər qəlbinin yumşalmasını istəyirsənsə, kasıbı yedir, yetimin başını oxşa!.." (Əhməd bin Hanbəl, Müsnəd, II, 263, 387)

Həzrəti Mövlana da bu hədisi şərh edərkən belə buyurur:

"Kasıblıq içində boğulan könüllər, dumanla dolu bir evə bənzəyir. Sən onların dərdini dinləmək məqsədi ilə o dumanlı evə bir pəncərə aç ki, onun dumanı çəkilsin, sənin də qəlbin yumşalıb ruhun incəlsin".

Lakin "yetimin başını oxşamaq" ifadəsi sadəcə maddi mənasıyla anlaşılmamalı, əksinə, onun maddi ehtiyacıyla bərabər, hətta daha ziyadə mənəvi ehtiyacını həll etməyin qəsd edildiyi unudulmamalıdır. Yəni dərdini ərz etmək üçün gəldiyində bir şokolad verməklə başdan etmək, yetimə baxmaq deyildir.

Rəsulullah (s.ə.s.) bizə yetimə necə baxılması lazım olduğunu nümunəvi həyatı və davranışı ilə təlim etmişdir. Belə ki, bir rəvayətə görə anası tərəfindən Rəsulullaha (s.ə.s.) xidmət etmək üçün gətirilən Enes (r.a.) də on yaşında bir yetim idi. On yaşındakı bir uşağın əlli yaşındakı bir Peyğəmbərə necə xidmət edəcəyi düşünülə bilər? Lakin Peyğəmbərimiz (s.ə.s.) Enesi qəbul etdi. Onu büyük bir məhəbbətlə tərbiyə etdi. Hətta Rəsuli Əkrəmin (s.ə.s.) təhsil və öyrətmə üsuluna, insanlara, xüsusilə də uşaqlara qarşı sonsuz şəfqət və səbrinə dair bir çox bilgi Enes (r.a.) vasitəsiylə bizlərə çatdı. Adətən, "əzizim" deyərək xitab etdiyi Enesin könlündə Rəsulullahın müstəsna bir yeri vardı. Bir gün Enes (r.a):

–"Rəsulullahın (s.ə.s.) qoxusundan daha gözəl nə bir ənbər, nə bir müşk, nə də hər hansı bir xoş qoxu qoxladım. Allah Rəsulunun mübarək dərisindən daha yumşaq nə bir atlasa, nə də bir ipəyə toxundum",- demişdi. Onu dinləməkdə olan tələbəsi Sabit:

–"Ey Enes, sən sanki hər daim Allah Rəsuluna baxır və Onun mübarək sədasını eşidirmiş kimi yaşayırsan, deyilmi?" – deyincə, Enes (r.a.) bu cavabı verdi:

–"Bəli, vallah, qiyamət günü Ona qovuşmağı ümid edirəm. Yanına getdiyimdə:

–"Ya Rəsulallah! Kiçik xidmətçin gəldi!" – deyəcəyəm.

Peyğəmbərimizə (s.ə.s.) Mədinədə on il xidmət etdim. Mən o zamanlar kiçik bir uşaq idim. Hər etdiyim iş Peyğəmbərimizin (s.ə.s.) arzu etdiyi kimi deyildi. Buna baxmayaraq, Rəsulullah (s.ə.s.) mənə, etdiyim heç bir iş üçün «of» belə demədi, «Bunu nə üçün (belə) etdin, bunu nə üçün etmədin?!» deyə məzəmmət etmədi". (Əhməd, III, 222. Krş. Buxari, Savm 53, Mənakıb 23; Müslim, Fədail 82)

Uzun bir ömür sürən Enesin (r.a.) Peyğəmbərimizlə necə bir könül əlaqəsi qurduğunu bu ifadəsi nə gözəl anladır:

"Yuxumda Sevimli Peyğəmbərimi görmədiyim heç bir gecə yoxdur" (İbni Sad, VII, 20).

Peyğəmbərimizin yetimləri himayəsinə dair digər bir misal da belədir:

Cəfər (r.a.) Mutədə şəhid olmuşdu. Cəfərin ailəsinin könlündəki yanğın bir az sakitləşsin deyə Peyğəmbərimiz üç gün sonra Cəfərin evinə getdi.

- "Bu gündən sonra qardaşım üçün ağlamaq yoxdur!" – deyə sözə başladı.

Sonra:

- "Qardaşımın uşaqlarını mənim yanıma gətirin",- dedi. Cəfərin oğlu Abdullah hadisəni belə nəql edir:

- "Bizi gətirdilər, Allah Rəsulunun qarşısında düzüldük. Quş balaları kimi idik" (Nəsai, Zinət, 57).

Belə kədərli bir vəziyyətdə hər kəs Rəsulullahın nə deyəcəyini maraqla gözləyərkən, Peyğəmbərimiz əvvəlcə dərd və kədərdən saçları pərişan halda olan yetimlərin üzü-gözü açılsın deyə bir bərbər çağrılmasını əmr etdi. Sonra da şəhadət və orta barmaqlarını göstərməklə oradakılara belə səsləndi:

"Mən və yetimə qol-qanad gərən kimsə, Cənnətdə belə (yan-yana) olacağıq" (Buxari, Talaq, 25).

Rəsulullahın (s.ə.s.) üzərində həssaslıqla durduğu digər bir xüsus, cənazəni məzara qədər yola salmaqdır. Hədisi-şəriftə bildirildiyi kimi, müsəlmanın müsəlman qardaşı üzərindəki haqlarından biri də cənazə yerində iştirak etməkdir (Buxari, Cənaiz, 2; Müslim, Səlam, 4).

Hətta Peyğəmbərimiz şahidliyinin məqbul olması üçün möminlərə: *"Cənazə namazı qıldığınız*

Cəmiyyət içindəki qanadı qırıq yetimlərə qol-qanad gərmək, vəfat edən mömin qardaşımızın cənazəsində iştirak etmək, xəstələri ziyarət etmək, Allahın rizasını cəlb edən mühüm ictimai ibadətlərdəndir. Bunu da unutmamaq lazımdır ki, əziyyət çəkən və möhtac insanların yerində biz də ola bilərdik. Bu səbəblə xəstə, qərib, yetim və yoxsullarla maraqlanıb kimsəsizlərin kimsəsi olmaq Rəbbimizə qarşı bir şükür borcumuzdur.



zaman ölən adama səmimiyyətlə dua edin",- deyə buyurmuşdur (Əbu Davud, Cənaiz, 54, 56; İbni Macə, Cənaiz, 23).

Belə ki, Enes (r.a.) belə deyir:

"Peyğəmbərimiz ilə bəzi səhabələr birlikdə ikən yanlarından bir cənazə keçdi. Əshabı-kiramdan bəziləri o cənazəni xeyirlə yad etdilər. Bunun üzərinə Peyğəmbərimiz:

–"Vəcəbət! (Vacib oldu, dəqiqləşdi!)» - buyurdu.

Sonra bir cənazə də keçdi. Orada olanlar onun mənfi cəhətlərindən bəhs etdilər. Rəsulu-Əkrəm yenə:

-"Vəcəbət! (Vacib oldu, dəqiqləşdi!)» - buyurdu.

Bunun üzərinə Ömər ibn Xəttab (r.a.):

–"Ya Rəsulallah, dəqiqləşən nədir?" – deyə soruşdu.

Peyğəmbərimiz (s.ə.s.):

–*"Əvvəl keçən cənazəni xeyirlə yad etdiniz, bu səbəblə onun Cənnətə girməsi dəqiqləşdi. Sonrakının da mənfi cəhətlərindən bəhs etdiniz, onun da Cəhənnəmə girməsi dəqiqləşdi. Çünki siz (möminlər), Allahın yer üzündəki şahidlərisiniz",*- buyurdu" (Buxari, Cənaiz, 86; Müslim, Cənaiz, 60).

Həzrəti Əlinin (r.a.) nəql etdiyinə görə, Rəsulullah (s.ə.s.) belə buyurmuşdur:

"Kim bir ölünü yuyar, onu kəfənləyər, (kəfəninə) gözəl qoxu sürtər, (cənazəsini) daşıyar, cənazə namazını qılar və ölünün üzərində gördüyü (mənfi şeyləri) yaymazsa, anasından doğulduğu kimi günahlarından arınmış olar" (İbni Macə, Cənaiz, 8).

Bu ifadələr də bizlərə cənazə yola salmağın Haqq qatında nə qədər dəyərli olduğunu göstərir. Əslində, insanın üzərində dayanması lazım olan ən mühüm xüsus, qəbir həyatı və sonrasıdır. Bu səbəblə bir kimsə dəfn edilən bir ölü gördüyündə, bu hadisənin bir gün özünün başına da gələcəyini təfəkkür etməlidir. Belə ki, Rəsulullah (s.ə.s.) Allah-Təalaya tez-tez belə sığınardı:

"Ya Rəbbi, qəbir əzabından və Cəhənnəm əzabından Sənə sığınıram…" (Buxari, Cənaiz, 88; Müslim, Məsacid, 128-134)

Rəsulullahın (s.ə.s.) əshabından üzərində həssaslıqla dayanmalarını istədiyi digər bir saleh əməl də "xəstə ziyarəti"dir. Həyatda acizliyi daddığı üçün ürəyi də kədərli olan bir xəstə, əlbəttə, dostlarının, qohumlarının və qonşularının onu axtarmasını, ziyarət etməsini arzu edir. Belə könlü yaralı bir xəstəni ziyarət edib halını-xətrini soruşmaq və təsəlli etmək, Allahın rizasına vəsilə olan mühüm bir ictimai qulluq vəzifəsidir. Belə ki, Peyğəmbərimiz (s.ə.s.) şiddətli və ya xəfif olmasından asılı olmayaraq, əshabından xəstə olanları ziyarət etmiş, hətta narahatlığı uzun sürənləri dəfələrlə ziyarətə getmişdir.

Məsələn, ağır xəstə olan Cabir ibn Abdullahı evində ziyarətə getmiş, özündən keçmiş bir vəziyətdə gördüyü Cabiri daha sonra Həzrəti Əbu Bəkir və Həzrəti Ömərlə birlikdə yenidən ziyarət etmişdir (Tirmizi, Fəraiz, 7).

Həzrəti Aişənin nəql etdiyinə görə Xəndək döyüşündə qol damarından yaralanan Sad ibn Muaz üçün məsciddə bir çadır qurdurmuş və onu tez-tez ziyarətə getmişdir (Buxari, Məgazi, 30).

Hətta Sevimli Peyğəmbərimiz:

"Bir kimsə xəstəni ziyarət etdiyində rəhmətin içinə dalar, onun yanında oturunca da rəhmət onun könlünə yərləşər" (Muvatta, Ayn, 7; İbni Hanbəl, III, 174.) buyuraraq bu ziyarətlərdə xəstənin yanında bir az qalmağı xüsusilə tövsiyə etmişdir.

Bu zaman dilimində də xəstənin könlünü xoş edəcək, onun əhvalını yüksəldəcək gözəl sözlər söylənməsini arzu etmişdir (Tirmizi, Tibb, 35).

Salman (r.a.) belə anladır:

Mən xəstə ikən Allah Rəsulu (s.ə.s.) ziyarətimə gəlmişdi. Çıxarkən:

«Ey Salman! Allah sıxıntılarını dəf etsin, günahını əfv etsin. Ölüncəyə qədər dininə qüvvət, bədəninə səhhət versin!» - buyurdu (Heysəmi, II, 299).

Peyğəmbərimiz xəstənin etdiyi duanın mələklərin duası kimi olduğunu bildirmiş və belə buyurmuşdur:

"Xəstəni ziyarət edin və ondan sizə dua etməsini istəyin. Çünki xəstənin duası məqbuldur. Günahı da əfv edilər" (Süyuti, əl-Camius-Sağir, II, 57).

Bu mühüm vəzifəni ehmal etmək isə, müsləman üçün böyük bir itki və ağır bir məsuliyyətdir. Rəsulullah (s.ə.s.) bu haqda belə xəbər vermişdir:

"Allah Təala, qiyamət günündə belə buyurur:

-«Ey Adəmoğlu! Xəstələndim, Məni ziyarət etmədin!» Adəmoğlu:

- «Sən Aləmlərin Rəbbi ikən mən Səni necə ziyarət edə bilərdim?» - deyər. Allah Təala:

-«Filan qulum xəstələndi, ziyarətinə getmədin. Onu ziyarət etsəydin, Məni onun yanında tapardın. Bunu bilmirsən?" (Müslim, Birr, 43)

Yetim, qərib, xəstə və möhtacın dərdiylə feilən maraqlanmaqdan başqa, onlara bir də ürəkdən gələn dualarla mənən dəstək olmaq, mühüm bir din qardaşlığı vəzifəsidir. Bunun üçündür ki, Allah-Təalaya hər yalvarışlarında bu sözlərlə dua etmək nəcib millətimizdə bir növ adət halına gəlmişdir:

"Ya Rəbbi! Xəstələrə şəfa, dərdlilərə dəva, borclulara əda, ölülərə rəhmət və məğfirət ehsan eylə. Namurad olanları bərmurad, naşad olanları da lütfü kəraminlə xandanu-şadan (xoşbəxt) eylə!"

Qısacası, cəmiyyət içindəki qanadı qırıq yetimlərə qol-qanad gərmək, vəfat edən mömin qardaşımızın cənazəsində iştirak etmək, yaxınlarına başsağlığı verməklə dərdlərini paylaşmaq və xəstələri ziyarət etmək, Allahın rizasını cəlb edən mühüm ictimai ibadətlərdəndir. Yəni İslamı həyatın hər mərhələsində yaşaya bilmək zəruridir. Bundan başqa, bunu da unutmamaq lazımdır ki, əziyyət çəkən və möhtac insanların yerində biz də ola bilərdik. Bu səbəblə xəstə, qərib, yetim və yoxsullarla maraqlanıb kimsəsizlərin kimsəsi olmaq Rəbbimizə qarşı bir şükür borcumuzdur.

Allah-Təala əlimizdəki imkanları möhtaclarla paylaşa bilməyi, məmnun və xoşbəxt etdiyimiz könüllərin dünyada ruhaniyyətimiz, axirətdə imdadımız, Cənnətdə də səadətimiz olmasını lütfü-kərəmiylə ehsan eyləsin.

Amin!

f.f.d. Gülnarə SEYİDOVA
g.seidova@yahoo.com

Hicri təqvimi necə yarandı?

Təqvim, zamanı dərk etmək və müəyyən bir plana uyğun olaraq vaxtı dəyərləndirmənin ifadəsidir. Təqvimlər, tarix ərzində incələndiyində, Qərbdə Mayalılardan, Şərqdə Misirlilərə qədər bütün qövmlərdə zaman ölçüsü olaraq günəş və ay kimi göy cisimlərinin müntəzəm və periodik hərəkətlərinin əsas alınaraq hazırlandığı anlaşılır. Qurani Kərimdə də bəyan edildiyi kimi – günəş və aydan vaxtı müəyyən etmək və hesablamaq üçün də faydalanmışlar. Göy cisimlərinin müntəzəm və periodik hərəkətlərini nəzərə alan təqvimlər 3 yerə ayrılır:

1. Günəş təqvimi: Bu təqvimi ilk dəfə misirlilər istifadə etmişdir.

2. Ay-günəş təqvimi: Bu təqvimdə, ilin müddəti günəş təqvimininki ilə eynidir. Aylar isə mümkün olduğu qədər qəməri ayla başlayır və bitir. Yeni ilin hər zaman eyni mövsümə rastlaması üçün üç ildə bir qəməri ilə bir ay əlavə etmək lazımdır. Çünki qəməri il şəmsi ilindən 11 gün əskikdir. Bu da üç qəməri ilində bir ay edir.

3. Ay təqvimi, yalnızca ayın dünyadan görünən fərqli şəkillərindən, yəni ayın hərəkətləri əsasında hazırlanmışdır.

Hz. Peyğəmbər və Müsəlmanların Mədinəyə hicrəti ilə dünya tarixində yeni bir səhifə açıldı. Dünya tarixinin axışını dəyişdirən İslam, hicrətlə artıq özünə bir sığınacaq, bir yurd tapdı. Mədinə, dünya tarixinin gedişatına təsir edəcək bir mərkəzə çevrildi. Hicrət, İslam təqviminin başlanğıcına adını verməklə yanaşı, təqvimlə bağlı dəyişikliklər də hicrət hadisəsindən sonra baş vermişdir.

Əslində İslamın, günəş təqvimi yerinə qəməri təqvimi seçməsi, dini məqsədlərə daha uyğun olmasından və ədaləti təmin etməsi üçündür. Müsəlmanların dini ibadətlərinin ritmini bu günə qədər müəyyən edən bu təqvimdir.

"Namaz və oruc kimi əsas ibadətlər, günəşin qalxması və batmasına görədir.



Əgər ibadətlər qəməri günəş ilinə uyğun olsaydı, ədalətsizlik işlənmiş olacaqdı, çünki bəzi müsəlmanlar daim uzun günlərdə oruc tutacaq və ya həyatları boyu digərlərindən daha çətin şərtlərdə ibadət edəcəkdilər" (Seyyid Hüseyin Nasr).

Hicrətin 2-ci ilində oruc və qurban ibadətlərinin fərz qılınması ilə qəməri ilinin istifadəsinin məcburiyyəti yaranmışdır. Qurani-Kərimin təlqin etdiyi zaman anlayışı və təqvimlə bağlı qaydalar Hz. Peyğəmbər dövründə təqvim hazırlanmasının ilkin mərhələsi hesab oluna bilər.

Hz. Ömər zamanında son şəklini alıb rəsmiləşdirilən və ümumi istifadə olunan təqvimin təşəkkülü bir zaman daxilində olmuşdur. Bu təqvimin ilk ayı Rəbiüləvvəl, son ayı isə Səfərdir.

Hz. Peyğəmbər dövründə təqvimlə bağlı önəmli addımlar atılmasına baxmayaraq təqvim məsələsi müəyyən bir üsula keçilməmişdi. Bu hal, Hz. Ömərin dövrünə qədər davam etdi. Hz. Ömərin dövrü, İslam dövlətinin qısa zamanda hüdudlarının genişləndiyi, müsəlmanların daha ciddi bir şəkildə fərqli dini, siyasi görüş və mədəniyyətlərlə təmasa keçdiyi, digər millətlərin İslama toplu halda girməyə başladığı, rəsmi görüşlərin, mədəni münasibətlərin artdığı, hərbi fəaliyətlərin genişləndiyi, dövlət gəlirlərinin artdığı bir dövrdür. Bununla yanaşı, Hz. Ömər dövründə, dövlətin müəssisələri yerləşməyə başlamış, divanlar tərtib edilmiş, yazılan sənədlərə tarix qoymağa ehtiyac yaranmışdır.

Hz. Ömər səhabələrlə təqvim məsələsini müzakirə etmişdir. Müzakirə nəticəsində, Rəsulullahın hicrətini tarixin başlanğıcı qəbul edən və ilinin ilk ayı Rəbiüləvvəl rəsmi hicri qəməri təqvim, Hz. Ömər tərəfindən hicrətin 16 və ya 17-ci ilin 15 Rəbiüləvvəlində əhya edilib rəsmiləşdirildi. Buna "rəsmî hicri təqvim" deyə bilərik. İbn Kuteybənin də işarə etdiyi kimi, "qeyri rəsmi qəməri hicri təqvim"də ilin ilk ayı Rəbiüləvvəl ikən rəsmi hicri təqvimdə daha əvvəllər olduğu kimi ilin ilk ayı Məhərrəm qəbul edildi. Beləcə təqvimdə daha bir qarışıqlığın qarşısı alınmış oldu. Bunun başqa bir səbəbi də Ərəb yarımadasında bu ayın həcc mövsümündən sonra ilin ilk iş ayı olmasıdır.

Səhabə, İslam tarixinə başlanğıc təyin edərkən dörd alternativ üzərində durmuşdur:

Hz. Peyğəmbərin doğumu,
Hz. Peyğəmbərin peyğəmbərliyi,
Hz. Peyğəmbərin hicrəti,
Hz. Peyğəmbərin vəfatı.

Alternativlərin hər birinin başlanğıç olaraq qəbul edilməsi mümkün ikən səhabələr, hicrət vaxtını tarixin başlanğıcı olaraq qəbul etmişlər. Çünki Rəsulullahın doğumu və peyğəmbərlik vaxtı, dəqiq təyin olunmadığı üçün Hz. Peyğəmbərin vəfatı zamanının isə verdiyi qüssədən dolayı, yəni insan psixologiyasına görə münasib görmədilər. Nəticədə əshab, Hicrəti İslam tarixinin başlanğıcı olaraq qəbul etdi.

Nəticə etibarı ilə qəməri təqvimə bəzi dəyişikliklər olsa da Hz. Ömərin zamanında son halını almış və rəsmiyyət qazanıb istifadə olunmağa başlanmışdır.

Xədicə ŞAHİN

ORTA ASİYADAN QAFQAZA SALAM



Əvvəl salam, sümməl kəlam (öncə salam, sonra kəlam)

İki, beş və yeddi yaşlarında üç uşaq parkda yanımdan sıra ilə keçərkən göz-gözə gəldik və böyük uşaqdan başlayıb kiçiyinə doğru hamısı məni rusca zdrastvıy (salam) deyərək salamladılar. Kəlam olmadan salamın insanın könlündə məhəbbət meydana gətirdiyini, islamdakı tanıdın-tanımadın hər kəslə salamlaşmağın önəmini sanki bu üç rus uşaq mənim daha dərindən qavramağıma səbəb oldu.

Salam vermək mədəniyyəti İslamda və İslamdan öncəki bütün mədəniyyətlərdə olan və önəm verilən ənənədir. Bu səbəbdən Orta Asiya xalqı uşaq dərk etməyə başladığı andan ona salamlaşmağı və əllə görüşməyi öyrədir. Yeni gəzməyə başlayan bir uşaq sizə doğru gələr və salamlaşmaq üçün əlini uzadar. Böyüklər də buna dəyər verər və əyilərək uşaqla görüşər. Üçüncü uşağım buralarda doğulub böyüdüyü üçün baxıcısı onu da salamlaşmağa vərdiş etdirmişdi. Bir yaşından bağçada kimi görsə salamlaşırdı. Hər gün gördüyü gözətçi ilə belə salamlaşmağı axsatmazdı.

İlk dəfə Türkiyədən ayrılıb Azərbaycana gəldiyimiz zaman Quran kursunda çalışan xanımlarla salamlaşır, amma kişilərə salam vermirdik. Bir gün çalışanlardan Rza dayıya bu hal qəribə gəlir və yoldaşıma, "müəllim, indi biz sizin xanımların yanından keçərkən heyvan kimi başımızı əyək, salam verməyək?" - deyir. Rza dayı ağır bir şəkildə olsa da vəziyyəti gözəl ifadə etmişdir. Adətlərə hörmət edərək sonra, xüsusilə Rza dayını görüncə salam verib elə keçirdim. İslamda da qonşuluq, qohumluq və ya iş səbəbilə görüşən kişi və qadının salamlaşması caizdir. Əsma binti Yezid (r.anhə) Allahın Rəsulunun (s.ə.s.) bir qadınlar topluluğuna baş çəkdiyini və onlara salam verdiyini nəql etmişdir (Əbu Davud, Ədəb, 127.).

Salamlaşma Türklərin tarixi kitablarında da yer alır. Dədə Qorqud kitabında keçən "Dəli ozan gəldi, baş endirib təzim etdi, salam verdi",- deyə yazması ozanın kəlamdan öncə, salama yer verdiyini göstərir.

Bir Türk xaqanı olan Eliğ Xaqanın yanındakı bəylərin, "atlarından enib diz çökərək salam verdikləri" yazılır. Belə ki, Türklərdə də digər birliklərdə olduğu kimi salamlaşma sadəcə dil ilə, sözlərlə məhdud deyildir. Salamlaşma-

ğa bədən dili də əlavə edilir. Tarixi bizə təsvir edərək yaşadan "Diriliş" serialında baş əyib, əl sinədə dirsəklərdən möhkəm tutaraq bir salamlaşma şəkli səmimiyyəti, sevginin böyüklüyünü göstərir. İnsan sevdiyi ilə qarşılaşınca ona sevgisini, həsrətini dillə söyləməsi kifayət deyil. Bədən dili də işin içinə girərsə, o zaman coşğu daha da artır. İslamda da salamla bərabər əl sıxışmaq sünnəti müsəlmanlar arasındakı sevgini artıran ən böyük amillərdəndir.

Peyğəmbərimiz (s.ə.s.) *"İki Müsəlman qarşılaşıb musafaha (əl sıxışması) edərlərsə, Allah-Təala onlar ayrılmadan hər ikisinin də günahını bağışlayar"* (Əbu Davud, Ədəb, 143) – buyuraraq, salamlaşmada coşğunu artıran bədən dilini də işin içinə qatmışdır.

Həmçinin Mahmud Kaşğarinin 1072-ci ildə qələmə aldığı "Divani-Lüğətit-Türk" adlı əsərində bir-birlərini tanımayan iki insanın qarşılaşdıqları zaman əvvəlcə salamlaşdıqları, sonra bir-birlərinə "hansı qəbilədənsən" mənasına gələn "boy kim?" sualını soruşduqları, bundan sonra danışmağa davam etdikləri haqqında yazılır.

Türklərdə salamlaşdıqdan sonra anında haralı olduğunu soruşmaq, kazaklarda salamdan sonra ilk olarak hansı ruudan (sülalədən) olduğunu soruşmaq keçmiş ənənədir. Amerikaya gəzməyə gedən bir tanışımız gəldiyində "ora nə gözəldir, heç kim bir-birindən haralısan, məmləkətin haradır kimi suallar soruşmur, hər kəs öz işindədir" demişdi. Bu hal yaxşı, yoxsa pis haldır, analiz etmək lazımdır. Salamlaşmaq, məmləkətini soruşmaq əslində məhəbbətin başlanğıcıdır. Məhəbbət olmazsa, insanda millət sevgisi, qardaşlıq sevgisi meydana gəlməz.

Hər millət adət və ənənələri ilə şəxsiyyətini tanıdır. Salamlaşmaq insanı ilk tanıdan hərəkətdir. Salamlaşmaqla tanımadığımız insanın dini, milləti haqqında bilgi sahibi oluruq. Dünyanın digər ucundakı bir müsəlmanla, o biri ucundakı müsəlmanı bir araya gətirən "Səlamun aleykum" sözləridir. Peyğəmbərimiz müsəlmanın şəxsiyyətini itirməməsinə çox diqqət göstərmiş və özündən sonra gələcək olan bütün ümmətinin də buna diqqət etməsi xüsusunda hədislər əmanət etmişdir. *"Yəhudilər salamı barmaqla, xristianlar salamı ovucla, məcusilər (atəşə və inəyə sitayiş edənlər) isə əyilərək edirlər. Siz belə salam verməyin"*,- buyurmuşdur (Tirmizi, Buxari).

Yüz ildən uzun bir müddət müsəlmanın kimliyini itirmək mövzusunda xüsusi səylər göstərilir. Müsəlmanın həyatında yeməkdən içməyə, oturmaqdan qalxmağa qədər hər şey dəyişikliyə məruz qalmışdır. Sünnət olan əllə yemək kobudluq olaraq göstərilmiş, sol əllə yemək müasirlik olaraq mənimsədilmişdir. Allahın adının keçdiyi, dua ehtiva edən salam kəndlilik, modern dildə "hay, salam, günaydın" kimi sözlər müasirlik göstəricisi olmuşdur. Orta Asiyaya ilk gəldiyimizdə təsəttürlülər Allahın salamını bir-birinə vermədən keçmirdilər. Hətta Sovet Rusiyasından ayrıldıqdan sonra bir dostum qardaşı və gəlinləri ilə islama qayıdırlar. Təsəttürlü xanımlar yeni-yeni çoxalırdı. Bir-birlərinə yolda gedərkən salam verirdilər. Dostumun anası da müsəlman olduğu halda, Quran və sünnətdən bixəbər olduğu üçün "bunlar aralarında şifrəli sözlər söyləyirlər" deyərək qorxarmış. 70 il boyunca İslam adət və ənənələri, salamlaşmaq da daxil olmaqla, hamısı unutdurulmuşdur.

Modernizm Orta Asiya müsəlmanlarını da çox qısa müddətdə təsiri altına aldığı üçün salam vərənlərin sayı azaldı. Hətta Rusca salam verilməyə başlandı. Bu hal müsəlmanın gücsüzlüyündən qaynaqlanan davranış biçimidir. Xristian ikən müsəlman olan Roger Garaudynun İstanbulda müsəlmanlara verdiyi bir konfransda söylədiyi kimi "Siz sağlamsınız, fəqət özünüzü xəstə zənn edirsiniz. Siz xəstə olan qərbi təqlid edirsiniz. Heç sağlam insan, xəstəni təqlid edərmi?" - sözləri ibrətlidir.

Öz müqəddəs dəyərlərimizin fərqinə varsaq, qiymətini bilsək, bu xəstəlikdən qurtulmuş olarıq.

Peyğəmbərimiz (s.ə.s.): *"Mən sizə etdiyiniz təqdirdə bir-birinizi sevəcəyiniz bir şeyi xəbər verim? Aranızda salamı yayın"* (Müslim) - buyurmuşdur.

Azərbaycandan ayrılmağımın üzərindən uzun illər keçməsinə baxmayaraq, Azəri qardaşlarımın sevgisi azalmaq yerinə, ayrılığın həsrəti ilə daha da pərçimləndi. Bunun səbəbi davamlı olaraq Qafqazlılardan Orta Asiyaya göndərilən "meşok" dolusu, çoxlu-çoxlu, qucaq dolusu salamlardır. Salama daha artığı ilə qarşılıq vermək sünnətdir. Mən də Orta Asiyadan Qafqazlılara, can Azərbaycana ürək dolusu salamlar göndərirəm. Ürək cism olaraq kiçik olsa da içi meşoklardan, qucaqlardan, kamazlardan böyükdür. Ürək dolusu "Əssəlamu aleykum və rahmətullahi və bərakətuh".

Nəzrin HÜSEYNOVA

Qövmü üçün ən xeyirli olan qadın

Peyğəmbərimizin Hz. Cüveyriyyə ilə evlənməsi bir çox xeyirlərə vəsilə olmuşdu. Belə ki, əshabı-kiram da, "Rəsulullahın möhtərəm zövcəsinin qohumlarının bizə kölə olmaları düzgün olmaz",- deyərək, bütün Müstaliq qəbiləsinə mənsub olanları azad etmişdilər.

Cüveyriyyə anamızın bir anda əsarətdən qurtulmasını və Allah Rəsulu ilə evləndiyini eşidən Müstaliq oğullarından bir çoxları Peyğəmbərimizin (s.ə.s.) bu cür xeyirxahlıq və alicənablığının qarşısında müsəlman oldular. Hətta savaş əsnasında müsəlmanların əlindən qaçıb qurtulanlar da Mədinəyə gələrək İslamı qəbul etdilər. Beləliklə, Peyğəmbərimizin bu nikahının da necə xeyirlərə vəsilə olduğunun biz də şahidi olduq.

Bu nigah üçün Aişə anamız da, "Mən qövmü üçün Cüveyriyyədən daha xeyirli olan bir qadın görmədim",- demişdi.

Doğurdan da, Hz. Cüveyriyyə seçilmiş qadın idi. Bir gün içərisində əsarətdən azadlığa, azadlıqdan hidayətə və Allah Rəsulunun xanımı olma şərəfinə nail olmuşdu.

Göründüyü kimi bu evlilik tamamilə siyasi və ictimai məsələ ilə əlaqəli gerçəkləşmişdir. Peyğəmbərimizin öz istəyinə uyğun deyil, vəhylə hərəkət etdiyi Qurani-Kərimdə bizə bildirilir (Bunun üçün Nəcm surəsinin 1-4-cü ayələrinə baxa bilərsiniz).

Bu evliliyin əsas məqsədi insanların qəlblərini Peyğəmbərimizə və İslam dininə yönləndirmək, qəbilələri qohumluq əlaqəsi vasitəsilə ətrafına toplayaraq özünə, dolayısıyla İslama yardım etməkdir. Bildiyimiz kimi bir insan hər hansı bir qəbilədən olan biriylə evləndiyində o qəbilədəki insanlarla arasında ünsiyyət, yoldaşlıq, yardımlaşma meydana gəlir. Beləliklə, bu evlilikdən sonra da Müstaliq qəbiləsinin bütün əsirləri azadlığa çıxmış və müsəlman olmuşdular.

Hz. Cüveyriyyə anamızın fəzilətləri

Hz. Cüveyriyyə çox təqvalı xanım idi. İbadətlərinə qarşı diqqətli idi. Çox namaz



qılar, zikr edər və nafilə oruclar tutardı. Hətta o dərəcəyə çatmışdı ki, Peyğəmbərimiz (s.ə.s.) bəzən onun ibadət həyatına müdaxilə edərək tutduğu nafilə orucu pozmağını istəyərdi.

Səhih əl-Müslimdə rəvayət olunan bir hədisdə belə deyilir:

"Bir gün Allah Rəsulu öz namazgahında ikən sübh namazını qılıb Hz. Cüveyriyyənin yanından erkəndən ayrılmışdı. Quşluq vaxtı keçdikdən sonra evə qayıtdığında ondan:

-"Hələ də zikr edirsən?" - deyə soruşmuş, o da:

-"Bəli",- deyə cavab verincə, Peyğəmbərimiz:

-"Sənə səhərdən bəri etdiyin zikrlərin hamısına bərabər bir zikr öyrədim?"- deyir, ardı ilə də bu zikri 3 dəfə təkrar edir:

"Yaratdıqlarının sayı qədər Allaha həmd və zikr edirəm (Sübhanəllahi və bihamdihi adədə xəlqihi)".

3 dəfə: "Rizası üçün zikr edirəm (Və rizaə nəfsihi)";

3 dəfə: "Ərşin ağırlığı qədər zikr edirəm (Və zinətə ərşihi)";

3 dəfə də: "Allahın kəlmələrinin mürəkkəbi qədər zikr edirəm (və midədə kəlimətihi)",- buyurmuşdur (Müslim, Zikr və dua, 19; İbni-Macə).

Hz. Cüveyriyyə Peyğəmbərimizlə 6 il evli qalmış və 7 hədis rəvayət etmişdir.

Cüveyriyyə anamız yoxsullara qarşı çox şəfqətli idi. Özü yeməz başqasına yedirər, özü içməz başqasına içirərdi. Bir gün Peyğəmbərimiz onun otağına gedərək yeməyə bir şeyin olub-olmadığını soruşmuşdu. O da "Xeyr, ey Allahın Rəsulu. Yanımdakı azad olmuş cariyəmin sədəqə verdiyi bir qoyun sümüyündən başqa yeməyə bir şey yoxdur",- demişdi. Peyğəmbərimiz də "Gətir, onun yeri tapıldı",- deyə buyurmuşdur (Müslim, Zəkat, 52).

Burada Peyğəmbərimizin (s.ə.s) "Gətir, onun yeri tapıldı" deyərkən özünü deyil, fəqir və yoxsulları nəzərdə tutduğu güman olunur. Çünki O, özünə gələn hədiyyəni qəbul edər, lakin sədəqə, zəkat niyyətiylə gətirilənləri isə kasıblara paylayar, ona toxunmazdı.

Hz. Cüveyriyyə 70-80 yaş arasındaykən hicrətin 56-cı ilində vəfat etmiş və Baki qəbiristanlığında dəfn edilmişdir.

Allah hər birimizə bu dünyada ondan nümunə götürməyi, Cənnətdə də ona qonşu və dost ola bilməyi nəsib etsin inşallah. Amin!



Mətanət KƏRİMOVA



Kəpənək ömrü

Təzə çıxmışam baramamdan. Günəşin istisini, güllərin ətrini hiss edirəm. Bu gün kəpənək olacağam mən. Böyük, rəngli, zərif, incə, gözəl qanadlarım var. Əvvəlki, hamının eybəcər sandığı tırtıl deyiləm daha.

Yeni çiçəkləmiş ağac budaqlarının arasından uçuram, rəngarəng çiçəklərə qonuram. Sapsarı tozcuqların üzərində gəzirəm. Arıların toplandığı təzə çiçəkləmiş alça ağacına doğru qanadlanıram, rəqs edirəm çiçəklərlə…

Balaca uşaqlarla oynayıram indi, arxamca qaçırlar, nədənsə çox həyəcanlıdırlar, dincəlmələri üçün bir çobanyastığının ləçəyinə qonuram. Uşaqlar yavaşca mənə yaxınlaşırlar, mənsə qanadlarımı oynadıram. İnsanlar üçün balaca, mənim üçün yetərincə böyük olan əllərini üstümə gətirirlər, mən isə cəld uçmağa başlayıram, amma artıq gecdir. Uçduqca qanadımın zədələndiyini hiss edirəm. Onlar elə hey arxamca qaçırlar.

Yağış başladı, bu mənim üçün yaxşı hal deyil, bəlkə də yaxşıdır, çünki uşaqlar artıq arxamca qaçmırlar… Yağış nə qədər narın yağsa da incidir məni. Qanadlarım ağırlaşır, yavaş-yavaş yol kənarındakı daşların dibinə düşürəm. Axı bu gün mənim üçün çox önəmlidir, hələ toxunmadığım nə qədər gül ləçəkləri, görmədiyim ağaclar, birlikdə qanadlanmadığım kəpənəklər var… Bu nə talehsizlikdir ki, bir günlük ömrümü doyadoya yaşamadım…

Kəpənək ilə kainatın xəlifəsi olaraq yaradılmış insan arasında böyük bənzərliklər vardır. Kəpənək həyatı qədər verilən bir ömürdə bizim də tək vəzifəmiz Rəbbimizin

camal və kamalına güzgü ola bilməkdir. Zamandan mücərrəd, məkandan mücərrəd Yaradıcı üçün kəpənək ilə insan arasında bir fərq yoxdur. Elə isə bütün yaradılmışlar adına xəlifə olaraq yaradılan biz insanlar ən qısa ömrü ilə bizə ibrət verən kəpənəklərdən ilham almalı, bu qısa ömrün hər saniyəsini qulluqla, şüurla yaşamalıyıq. Bu haqda maraqlı bir hekayəni sizinlə paylaşmaq istəyirəm.

Bir gün gəzməyə çıxan bir insan çiçəklərə, yaşıllıqlara baxıb zövq alırdı. Qəfildən otların arasında bir qoza gördü. Anladı ki, bu bir kəpənək qozasıdır. Özlüyündə qərar verdi ki, kəpənəyin dünyaya gəldiyi anın ilk şahidi olsun. Oturub gözləməyə başladı. Amma kəpənəyin o kiçik bədəni öz qozasını tərk etmək fikrində deyildi. Kəpənəyin bacarmadığını və məğlub olduğunu düşündü. Ona görə də kəpənəyə yardım etməyə qərar verdi. Cibindən balaca bir bıçaq çıxarıb qozanın dəliyini astaca, ehtiyatla genişləndirdi.

Beləliklə, kəpənək həmin dəlikdən rahatlıqla çölə çıxdı. Lakin kəpənəyin bədəni kiçik və cansız, qanadları isə qırış-qırış idi. Həmin adam kəpənəyi izləməyə davam etdi. Onun o gözəl qanadlarını açıb uçacağını gözləyirdi. Amma alınmadı. Kəpənək cansız bədəni ilə torpaqda sürünür, uça bilmirdi. Adamın anlamadığı bu idi ki, kəpənək o qozanı dəlmək üçün qüvvə sərf edərkən bədəni qüvvətlənəcəkdi və o qozadakı maye qanadlarına hoparaq onları elastikləşdirəcəkdi.

Adam kəpənəyə yaxşı niyyətlə kömək etmək istəmişdi, ancaq kəpənəyə yaxşılıq etmək istəyərkən, ona çox böyük bir pislik etmişdi.

Əgər Allah, həyatda hər hansı bir səy göstərmədiyimiz halda hər şeyi versəydi, o zaman bu kəpənək kimi olardıq.

Ola biləcəyimiz qədər güclü ola bilməz və heç vaxt uça bilməzdik.

Güclü olmaq istədim və Allah məni gücləndirmək üçün mənə çətinliklər göndərdi.

Müdrik olmaq istədim və Allah həll etməyim üçün suallar yolladı.

Uğurlu olmaq istədim və Allah mənə işləmək üçün beyin, zəka və əzələ gücü verdi.

Cəsarət istədim və Allah mənə öhdəsindən gəlməyim üçün imtahanlar verdi.

Sevgi istədim və Allah mənə kömək etməyim üçün möhtac insanlar yolladı.

İstədiklərimə çatmaq üçün ehtiyacım olanları Allah mənə verdi.

O bu həqiqəti öyrənəndə bir ömürlük ibrət aldı. Deməli, çətinliklər bizdən yeni biz yaratmaq üçün vardır. Əgər Allah heç bir çətinlik olmadan irəliləməyimizə izn versəydi, o zaman biz şikəst olardıq. Qüvvətlənə bilməzdik. Bəzi əziyyətlər və kədərlər əhəmiyyətlidir, hətta biz onları sevməsək də...

Deyirlər ki, kəpənəklər bir gün, ən çox yaşayanı isə 2 ay yaşayır. Kəpənəklər, bəlkə də, ən qısa ömürlü canlılardır. Ancaq həyata dair faniliyi ən yaxşı kəpənəklərdən öyrənə bilərik. İnsan ömrü də əslində bu qədər qısadır. Bir əsr yaşasaq belə, ömür bir kəpənək ömrü qədərdir. Yaşlı insanlardan, "Bu qədər ömür necə keçdi?"- deyə soruşsaq, hamısının cavabı eyni olar: "Bir an kimi keçdi, külək kimi keçdi..."

Madam ki, ömür bu qədər qısadır, nəfəsimizin sonu var, elə isə bir-birimizin qanadlarını qırmayaq, yaralamayaq. Hər birimiz öz baramasını hörəcək qədər, o baramadan çıxa biləcək qədər və kəpənəklər kimi uça biləcək qədər cəsuruq.

Hamımız bir kəpənəyik və inanın uça bilərik. Fani ömrümüzdə hər zaman gözəlliklərə, yaxşılıqlara uçmaq arzusu ilə...

Afaq QURBANZADƏ



Gənc və sağlam qalmağın yolları

Dəyərli oxucularımız, özünə qulluq rubrikası təbii gənc və sağlam qalmağın yollarını sizin üçün araşdırmağa davam edir. Bu günkü müsahibimiz yenə də Rusiyanın feysfitnes üzrə mətəxəssisi Solomonova Ekatrinadır.

Hər vaxtınız xeyirli olsun, Ekatrina xanım. Sağlam həyat tərzi haqqında çox eşitmişik, elə ilk sualım da bu haqda olacaq. Sağlam həyat tərzi nədir?

Salam hər vaxtınız xeyir. Sağlam həyat tərzi balans deməkdir. Məsələn, səhər yuxudan gümrah qalxırıq, müxtəlif idman hərəkətləri edib zövq alaraq qidalanırıq. Hansısa bloqqer və ya həkim deyib deyə yox, anlamalıyıq ki, su orqanizmimizi təmizləyir, maddələr mübadiləsini gücləndirir, məhz bu səbəbdən də onu gündəlik normasında içməliyik. Qəbul etdiyimiz hər qida bizə enerji verməlidir ki, yaşadığımız hər andan zövq alaq və ətrafımıza pozitiv enerji saçaq. Məsələn, bir tikə tortu istəyimizə və zövqümüzə görə yeyiriksə, həmin tortda olan kalorinin, çoxluğu orqanizmimizə ziyan vura bilməz. Və ya sırf dincəlib sevdiyimiz filmi izləmək üçün bir gün idmanla məşğul olmuruqsa, bunun elə də böyük zərəri yoxdur. Əsas odur ki, bunları gündəlik vərdiş halına gətirməyək. Hər şeydə mütləq balans olmalıdır. Bir sözlə qəbul etdiyimiz qidadan, içdiyimiz sudan sadəcə zövq almalıyıq. Elə sağlam həyat tərzi dediyimiz də məhz budur. Əgər bu gün bir və ya yarım il bundan öncə ilə müqayisədə özümüzü daha gümrah hiss ediriksə, demək ki, düzgün həyat tərzi yaşayırıq.

Dünyada araşdırmalar göstərir ki, xarici görkəminə görə ən gec qocalma prosesinə məruz qalan yapon qadınlarıdır. Sizcə, bu nə ilə əlaqəlidir?

Bunun 3 səbəbi var:

İlk öncə onu vurğulayım ki, yapon qadınlarında "əzələli qocalma" növü olur. Bu növə aid insanlarda qocalma prosesi gec başlayır. Əvvəldən onların üz əzələləri fərqli şəkildə olur. İkincisi isə, onlar nəmişlik dərəcəsi yüksək olan yerlərdə yaşıyırlar. Üçüncü isə, onlar fərqli qidalanır. Dəniz məhsulları, balıq və s. kimi qəbul etdikləri qidaların tərkibi omeqa 3 ilə zəngindir. Yedikləri dəniz yosunları Mendeleyev cədvəlinin 63-cü elementini təşkil edir. Dəniz yosunlarının tərkibində 11 əvəzolunmaz amin turşusu var. Eyni zamanda, onların sümük quruluşu da bizlərdən fərqlənir. Məhz bu səbəbdən 30 yaşında yapon qadını yeniyetmə gənc kimi görünür.

Amma bu heç də o demək deyil ki, biz onlara bənzəməyə çalışmalıyıq. Bizim də individual, bənzərsiz çox gözəl keyfiyyətlərimiz var ki, onları qorumalıyıq. Yapon olmayan elə qadınlar tanıyıram ki, 50 yaşında 20, 30 yaş gənc görünür. Düzgün qulluq, sağlam qida bu nəticəni bizə verə bilər.

Ümumiyyətlə, dəridə qırışların aradan qalxması üçün hansı məsləhətləri verərdiniz?

İlk məsləhətim bədəni üzdən ayırmamaqdır. Qəribə də olsa, bizim üz dərimizdə əmələ gələn qırış və digər problemlər, ayaqdan başlayır. Bu artıq öz elmi təsdiqini tapıb. Daha sonra maksimum dərəcədə düzgün qidalanmaq vacibdir. Kimyəvi ərzaqlardan, dərinin hidrolipid tarazlığını pozan kosmetik vasitələrdən istifadə etməməyi məsləhət görürəm. Ən əsası isə gün ərzində təmiz və keyfiyyətli su içmək lazımdır. Bədən əzələləri üçün nəzərdə tutulan əzələ dartınma hərəkətlərini gündəlik icra etmək lazımdır.

Ağızda xoşgəlməz qoxunun olması da orqanizmimizdə hansısa problemin mövcudluğundan xəbər verir. Sizcə, əsas səbəb nədir və qarşısını necə almaq olar?

Bilirsinizmi, bunu nəyə bənzətmək olar? Zibil tullantılarını yığıb zamanında atmasaq, mütləq çox pis qoxu gələcək. Eyni vəziyyət orqanizmimizdə də baş verir. Əgər gecə yatarkən qəbul etdiyimiz qidalar həzm olunmursa, mədəmizdə çürüyəcək. Lazımi miqdarda lif qəbul etmiriksə, o zaman yediyimiz qidalar həzm olunmur və bağırsaqlardan tam təmizlənə bilmir. Bilirsiniz ki, bizim bağırsaqlarımız olduqca uzundur, müxtəlif çuxurlardan ibarətdir ki, yemək qalıqları həmin çuxurlara dola bilir. Ağızda xoşagəlməz qoxu, mədə problemləri və s. hiss etdikdə ilk olaraq bağırsaqları və orqanizmi şlaklardan təmizləmək lazımdır. Bildiyimiz kimi, bağırsaqlar immun sistemini formalaşdıran əsas orqandır. Biz öz orqanizmimizi dinləməyi bacarıb onun qeydinə qalmalıyıq. Buna görə də yüngül qidalarla düzgün şəkildə qidalansaq, hesab edirəm ki, bu cür problemlərin qarşısını almış olarıq.

Bir çox insanlarda tez-tez baş, boyun, əzələ ağrıları olur. Bunu aradan qaldırmaq üçün nələri tövsiyə edərdiniz?

Əzələ ağrılarından azad olmaq üçün ilk öncə kontrast duşdan istifadə etmək lazımdır. Çox isti suyu, soyuq su ilə növbələşdirmək lazımdır. Bu, əzələ gərginliyini aradan qaldıran effektli vasitədir. Əsas odur ki, kontrast duşdan başımıza istifadə etməyək.

Bəzi xanımlar təmizliyə nə qədər riayət etsələr də, bədəndən gələn xoşagəlməz qoxudan heç cür azad ola bilmir. Bununla bağlı hansı tövsiyələri verərdiniz?

Bədəndən gələn xoşagəlməz qoxu, orqanizmimizdə arzuolunmaz bakteriyaların mövcudluğundan xəbər verir. Bunlar göbələklərdir. Bir qayda olaraq həmin göbələklər potogen mühitdə bölünür. Bu qoxudan xilas olmaq üçün orqanizmi təmizləmək, limfa sistemini düzgün çalışdırmaq, toksinləri azaltmaq lazımdır. İsti havada idmanla məşğul olarkən tərin bədəndən çıxması çox gözəl haldır. Bildiyimiz kimi tər bədənimizin termorequlyasiya mexanizmlərindən biridir. Amma əgər tərlə bərabər xoşagəlməz qoxu da varsa, bu artıq bakteriyanın varlığını göstərir və qarşısı alınmalıdır.

Dərimizin gənc qalması və elastikliyini qoruyan kollogen haqqında danışmaq istərdim. Bəzi mütəxəssislərin fikrincə, kollogenin müəyyən yaş dövründən sonra bərpası dayanır. Bərpasını uzatmaq mümkündürmü?

Əslində, yaşla əlaqədar kollogenin bərpasının dayanması əfsanədir. Hansı yaş dövründə olmağımızdan asılı olmayaraq, əgər biz fiziki aktivliyimizə düzgün riayət ediriksə, o zaman kollogenin bərpası dayanmayacaq, çünki məhz idman edərkən bədən kollogeni bərpa edir. İstər 80, istərsə də 30 yaşında kifayət qədər sağlam və gənc görünə bilərik. Reklam üçün ekranlardan bizə filan kremi alın, dəriniz kollogenlə zəngin olacaq, deyilir. Bunlara o qədər də önəm vermək lazım deyil. Bir daha vurğulayıram, insanlar az hərəkətli həyat tərzi sürməklə, limfa sistemini çalışdırmamaqla bu problemi ortaya çıxarır. Bəzən deyirlər ki, üz əzələlərini çalışdırmağa ehtiyac yoxdur və ya ildə bir dəfə feysbildinqlə məşğul oldun yetər. Bu fikir, əlbəttə ki, yanlışdır. Çünki üz əzələləri ilə bədən əzələləri eynidir. Həm üzdən, həm də bədəndən gənc və sağlam qalmağımız üçün üz və bədən əzələlərini eyni vaxtda, müntəzəm, düzgün şəkildə çalışdırmağımız şərtdir.

Ekatrina xanım, dəyərli və faydalı məsləhətlərinizə görə təşəkkür edirəm.

Xanım ABDULLAYEVA



Avqust ayında keçirilən və İslamın şüarlarından olan Qurban ibadətinə həsr olunmuş "Təvəkkül, Təslimiyyət və Sədaqətin hekayəsi" adlı yarışmada birinci yerin qalibi Xanım Abdullayevanın essesini təqdim edirik.

Bir Sevda uğruna

Təvəkkül, təslimiyyət, sədaqət – birbirini tamamlayan bu kəlmələr, əslində, insanlığın var olmasını, yaradılma qayəsini təşkil edən ünsürlərdir. Təvəkkül darlıqda, varlıqda, yoxsulluqda da Allahı xatırlamaqdır.

Təvəkkülsüz olmaq ümidsizlikdir. Tədbir aldıqdan sonra təvəkkül etməliyik. Sevgili Peyğəmbərimiz bir səhabəyə "Dəvəni bağladıqdan sonra təvəkkül et",- buyurmuşdur. Demək ki, hər bir müsəlman əvvəlcə tədbirini almalıdır.

Təvəkkül Allaha güvənmək, hər şey ilə ona təslim olmaqdır. Məhz İbrahim (ə.s.) Rəbbinə güvəndi, özünü sorğu-sualsız atəşə atdı. Ona görə də atəş İbrahimi (ə.s) yandırmadı. Həcər anamızı və oğlu İsmayılı susuz çöllərdə təktənha buraxarkən təvəkkülün ən uca nöqtəsinə çatdı. Həcər anamız da "Bunu Rəbbin əmr edibdirsə, o bizi zay etməz",- deyərək Allah-Təalanın sevgisinə qovuşdu. Atəşə atılarkən uca Peyğəmbər , "Allah bizə yetər, O nə gözəl vəkildir" ,- deyərək Rəbbinə vəfalı olduğunu göstərdi.

Həzrəti Musa (ə.s.) Rəbbindən gələn səsi eşitdi, amma bir az tərəddüd etdi və ailəsini gecənin qaranlığında, yağışda tək necə buraxacağını ağlına gətirdi. Allah isə Musaya (ə.s.) xatırlatdı: "Mən varam, ey Musa!" Bu səslə ona təvəkkülü öyrətdi. Yetər ki, Ona güvən, arxalan, O sənə yetər! Necə ki ayədə: **"Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər"** (ət-Talaq, 3) - buyurulur. Allahın qüdrət təcəllisinə sığınmaqdır təvəkkül. Sığınmaq isə insanı təslimiyyətə aparar.

Təslimiyyət, təvəkküldən doğar. Təslimiyyətin əvvəli tövhiddir. Tövhidi dildə söyləmək asan, yaşamaq isə təvəkkül, təslimiyyət və sədaqətdir. Əgər tövhid kəliməsi ilə qəlbin titrəmirsə, hər an Onunla deyilsənsə, demək hələ Rəbbinə təslim deyilsən.

Təslimiyyət isə qurban tələb edir. Qurban İbrahim (ə.s.) kimi malından, canından, övladından keçə bilməkdir. Haqq yolunda səndə o qəlb varmı, bunları təslim edəsən sorğu - sualsız? Mərhəmət, rəhmət, sədaqət varmı, qurbanın qəbul olunsun?!

Allaha təslim olmaq könüldən keçər. Hər şeyinlə təslim olacaqsan. Qüsur, kibir, həsəd, nəfs – bunlar heç olacaq.

Anaya, ataya, övlada, məqama, pula – qısaca, dünyaya qurban olmaq atəş deməkdir. Hər şeyinlə ona təslim olmaq isə atəşdə gülüstan deməkdir.

Rəbbini elə bir sevgi ilə sevəcəksən ki, O da sənə təslim olmağı öyrətsin. Ona sığınmaq təslimiyyətə və sədaqətə aparan ən gözəl və

möhkəm bağdır.

Musanı (ə.s.) dənizdə batırmayan, İbrahimi (ə.s.) atəşdə yandırmayan, Yunusu (ə.s.) balığın qarnından sağ çıxaran, Məhəmmədi (s.ə.s.) Bədrdə tək qoymayan Allah, səni də darda qoymaz. Yetər ki Onunla ol!

Qurban təkcə qoçla-qoyunla deyil, eşq, fədakarlıq və nəfsini qurban etməklə, Rəbbin rizasını qazanmaqladır. İldə bir dəfə qurban kəsməklə deyil. Hər an, hər saat qurban ola bilməkdir. Budur təslimiyyət, təvəkkül, sədaqət.. Sonunda da sevdalı olduğuna çatmaq bu yoldan keçər.

Əsrlər öncə Yunus Əmrə qurbanda qoç kəsilməsinin bir təmsil olduğunu, əsl qurbanın canı Allah yolunda fəda etmək olduğunu söyləmişdir.

İsmayılam haqq yolunda
Canımı qurban edərəm.
Çünki bu can qurban Sənə,
Mən, qoç-qurbanı neylərəm?!

Nəfsi qurban etmədən vüsala gedən yollar təmizlənməz. Hər qurbanda da təmizlənib, canlanıb yenidən dirilmək olmaz. O qurban sayılmaz. Haqq yolunda qurban gedənlər əbədiyyət qazanırlar. Allah və Peyğəmbər aşiqləri sevdaları uğrunda yurd-yuvalarını tərk edərkən arxaya baxmadan sorğu-sualsız iman yolunu işıqlandıran oldular. Hicrətdir qurban! Hicrətdə qurban isə dünyalığı tərk etməkdir. Uhuddur, Bədrdir, Xəndəkdir, Təbükdür Qurban! Təslimiyyətin ən gözəl örnəyini Peyğəmbərimiz (s.ə.s.) və Onun əshabında görürük.

Çox müdhiş mənzərələr var İslam tarixində! Mişarla doğranan Zəkəriyyə (ə.s.) və oğlu Yəhya (ə.s.) kimi bir sevda uğruna can vermək! Şəhidlikdir qurban! Allaha aparan yoldur qurban! Allahın bütün nemətlərinə şükür edə bilməkdir qurban! Allah-Təalaya yaxınlaşa bilməkdir qurban! İbadətlərimiz, zikrlərimiz bir yetimin başını oxşamağımız, bir könül qazanıb infaq etməyimizdir qurban!

Nəyi qurban edirsən? Sənin İsmayılın nədir? Təslimiyyət və yaxınlaşma imtahanın necədir?

Allah bizi gücümüz yetdiyi qədər yükləmişdir. Kimin nəyə gücü çatarsa… Bəlkə bir baxış, bir təbəssüm qurban yerinə keçər. Bəlkə də, bir duyğu, istəyərək etdiyin hər bir əməl, hər bir iş ixlasla olarsa, qurban sayılar. Yetər ki sevgin və sədaqətin ancaq Onun rizası üçün olsun. Həcər anamız kimi susuz çöllərdə təkbaşına qala bilməsək də, biz də bir Həcər olaq yaşadığımız mühitdə. Təvəkkül və təslimiyyətimizlə, əlimizlə bacarmasaq qəlbimizlə, davranışlarımızla, həyat tərzimizlə örnək olaq.

İbrahim (ə.s.) atəşə atılarkən Rəbbinin rizası üçün heç tərəddüd etmədən buna razı oldu.

Bu gün isə hər tərəf görünməyən atəşlə doludur. Hər tərəf mənəvi atəş içindədir. İnternet, televizor, telefonlar, gündəlik həyatımızda rastlaşdığımız çox şey.. Bu atəşləri söndürmək üçün mən nə edirəm? Görüb görməməzlikdən edirəm, yoxsa bir az da olsa mənəvi dərman olmağa çalışıram? İstər bu günkü, istərsə də gələcək nəsil üçün hansı örnək əməlimiz var? Mənəviyyatı pozan nəfslərin tələsindən nə qədər övladlarımızı, gəncliyimizi qoruya bilirik? Nəyi qurban edirik bu yolda? Yoxsa nə deyərlər deyə susub göz yumuruq hər şeyə? Əgər görüb düzəltməyə çalışmadıqsa və tələsmədiksə çox şeyi itirdik. Vətənə, torpağa bağlılığı, onu sevib qorumağı öyrətdikmi gənclərimizə? Ana qədər əziz, sevgisi ilə bizləri böyüdən, havasını udub, üstündə gəzdiyimiz Vətən də bizə əmanətdir. Bu əmanəti qorumaq, övladlarımıza öyrətmək və sevgisini yaşatmaqdır qurban! Bunun üçün yuxusuz gecələr və narahat gündüzlər keçirməkdir qurban!

Analar olaraq bu gün bizim üstümüzdə çox ağır yüklər var. Təlim-tərbiyəli, fədakar və imanlı nəsil yetişdirmək üçün övladlarımızı düz istiqamətləndirmək lazımdır. Allah-Təalanın bizə bəxş etdiyi ömrün hər anınını dəyərləndirib Onun əmrləri çərçivəsində yaşaya bilməliyik. Əsl təslimiyyət budur. Əsl sevda da budur. İnsanlara qarşı mərhəmətli, sədaqətli, vəfalı olmağa aparır bizi! Sədaqətli olmaq üçün sevdalı olmaq lazımdır. Ümmətin hər bir üzvünə qarşı sevgi, vəfa borcumuz var.

Bir sevda uğruna qurban! Bu heç silinməyən, köhnəlməyən bir xüsusiyyətdir. Bu elə bir yoldur ki, sonunda O, uca Sevgilinin sevdası var. Eşq, səbir, sədaqət və təslimiyyətlə irəliləyəcəksən bu yolu! Həm də örnək həyatınla qurtaracaqsan batanları! Sən və mən buna borcluyuq, çünki biz öyrəndik, oxuduq. Oxuyarkən sızladıq, kövrəldik. Soyuğun, şaxtanın, istinin, küləyin qarşısında necə dayanmağı öyrədən bir məktəb keçdik. Ona görə də düşəni qaldırmağa, maddi və mənəvi köməyə ehtiyac olan hər bir insana əl uzatmağa, mənəvi yolu təmiz tutmağa biz borcluyuq. Yoxsa bir heç olarıq. Qurbanın, təslim olmağın mənəvi tərəfi zamanın ən böyük fədakarı olmaq deməkdir.

Elə bir fədakar, elə bir sevdalı olacaqsan ki, Rəbbin də səni o sevda ilə sevsin, qurbanını, təslimiyyət və təvəkkülünü qəbul etsin. Bu qurban həm maddi, həm də mənəvi olaraq Ərşi-əlaya çıxar Allahın izni ilə. Sonra da səni qoparar bu dünyadan, aparar əbədi və heç bitməyən sevgiyə… O sevgi ki sənə ana bətnindən tanışdır…

Aygün MƏMMƏDZADƏ



Özbək samsası

Ərzaqlar:
Xəmir üçün:
200 qram əridilmiş kərə yağı
1 x.q. şəkər tozu
1 ç.q. duz
2 ədəd yumurta
200 ml. süd
Yarım st. qatıq
600 qr. un
1 ç.q. soda
İçlik üçün:
350 qr. qiymə
2 ədəd soğan
2 ədəd kartof
1 dəstə keşniş
Duz, istiot
Hazırlanması:
Yumurtanın birinin sarısını üzərinə sürtmək üçün ayırırıq. Un və sodadan başqa xəmir üçün olan ərzaqların hamısını qaba töküb qarışdırırıq. Unu yavaş-yavaş əlavə edib, sodanı da qatıb yumşaq xəmir yoğururuq. Keşnişi, soğanı, kartofu soyub xırda doğrayırıq. Qiymə, duz və istiotu əlavə edib qarışdırırıq. Xəmiri mandarin böyüklükdə kündələrə bölürük. Kündəni ovuc içi böyüklükdə açıb içlikdən qoyub şəkərbura kimi bükürük. Soba listinə düzüb üzərinə yumurta sarısı sürtüb 200 dərəcə qızdırılmış sobada təxmini 30-35 dəqiqə bişiririk. Nuş olsun!



Bibər salatı

Ərzaqlar:
10 ədəd qırmızı bibər
3 ədəd yerkökü
3 ədəd kartof
3 ədəd badımcan
3 ədəd pomidor
2 yaşıl bibər
1 dəstə göy soğan
1 dəstə şüyüd
1 diş sarımsaq
Duz, istiot


Hazırlanması:
Qırmızı bibərlərin içini təmizləyib bir az qızardırıq. Yerkökü, kartofu və badımcanı xırda doğrayıb ayrı-ayrı qızardırıq. Dərin qaba töküb qarışdırırıq. Üzərinə pomidor, yaşıl bibər, göy soğan şüyüd və sarımsağı doğrayıb əlavə edirik. İçliyi qızartdığımız qırmızı bibərlərin içinə doldururuq. Salatımız soyuq halda yeyilir. Nuş olsun!


Südlü şirniyyat

Ərzaqlar:
1 l.süd
2 x.q. nişasta
3 x.q. un
1 st. şəkər tozu
1 x.q. kərə yağı
1 paket vanil
Yarım paket kakaolu petibör peçenyesi
Üzəri üçün:
Əridilmiş sadə şokolad
Hazırlanması:
Qazana südü töküb üzərinə nişasta, un, şəkər tozu əlavə edib ocaqda qatılaşana kimi qarışdıraraq bişiririk. Bişdikdə üzərinə kərə yağını və vanili töküb qarışdırıb ocaqdan götürürük. İsti şəkildə qəhvə çaşkalarına töküb ağızlarını streçlə bağlayıb soyumağa qoyuruq. Soyuduqdan sonra bir gün soyuducuda saxlayırıq. Dərin boşqabda kakaolu peçenyeni əzirik. Soyuducudan çıxartdığımız südlü sirniyyatı çaşkasından çıxardıb kənarlarını peçenye ilə örtürük. Üzərinə qaşıqla əridilmiş şokoladdan əlavə edirik. Nuş olsun!



Vüqarə MƏMMƏDOVA





Bexterev xəstəliyi

Bexterev xəstəliyi (ankilozlaşdırıcı spondiloartrit) – onurğa və oynaqların xroniki iltihabi xəstəliyi olub, hərəkətin proqressiv şəkildə məhdudlaşması ilə xarakterizə edilir. Bexterev xəstəliyinə adətən 15-30 yaşlı kişilərdə rast gəlinir. Qadınlar kişilərlə müqayisədə 9 dəfə az xəstələnir. Xəstəliyin ağrı və buxovlanma şəklindəki ilkin təzahürləri onurğanın bel şöbəsində meydana çıxır, sonra isə fəqərə sütunu boyunca yuxarıya doğru yayılır. Zaman keçdikcə bexterev xəstəliyi üçün tipik olan patoloji döş kifozu formalaşır. Oynaqlarda hərəkət tədricən məhdudlaşmağa başlayır, onurğa hərəkətsizləşir. Müalicə – medikamentoz terapiya, MBT, fizioterapiyadır.

Bexterev xəstəliyinin səbəbləri barədə ümumi məlumat

Xəstəliyin inkişaf səbəbi axıra qədər öyrənilməyib. Alimlərin fikrincə, xəstəliyin əsas inkişaf səbəbi immun hüceyrələrin orqanizmin öz oynaq və bağlarına qarşı aqressivliyinin yüksəlməsidir. Xəstəlik irsi meyilliyi olan insanlarda inkişaf edir. Bexterev xəstəliyindən əziyyət çəkən insanlar immun sistemində müvafiq dəyişikliklər törədən HLA-B27 antigeninin daşıyıcılarıdır.

Xəstəliyin inkişafında əsas məqam bədənin həddən artıq soyuması, kəskin və xroniki infeksion xəstəliklər nəticəsində immun statusun dəyişməsi ola bilər. Bexterev xəstəliyində immun hüceyrələrin daimi aqressivliyi nəticəsində oynaq, bağ və fəqərəarası disk toxumalarında xroniki iltihabi proseslər əmələ gəlir. Elastik birləşdirici toxuma tədricən sərt sümük toxuması ilə əvəzlənir. Onurğa hərəkətliyini itirir.

Bexterev xəstəliyi zamanı immun hüceyrələr yalnız onurğaya hücum etmir, iri oynaqlar da zədələnə bilir. Xəstəlik aşağı ətrafların oynaqlarını daha çox zədələyir. Bir sıra hallarda ürəkdə, ağciyərlərdə, böyrəklərdə və sidikçıxarıcı yollarda da iltihabi

proses inkişaf edir.

Bexterev xəstəliyinin təsnifatı

Əsasən hansı orqan və sistemin zədələnməsindən asılı olaraq Bexterev xəstəliyinin aşağıdakı formaları ayırd edilir:

1- Mərkəzi forma. Yalnız onurğa zədələnir. Xəstəliyin mərkəzi formasının iki növü var: kifoz (onurğanın döş şöbəsinin kifozu və bel şöbəsinin hiperlordozu ilə müşayiət olunur) və rigid (döş və bel əyrilikləri düzlənir, bel lövhə kimi düz olur).

2 - Rizomelik forma. Onurğanın zədələnməsi bud-çanaq və çiyin oynaqlarının dəyişiklikləri ilə müşayiət olunur.

3 - Periferik forma. Xəstəlik onurğanı və periferik (aşıq-baldır, diz, dirsək) oynaqları zədələyir.

4 - Skandinaviya forması. Klinik təzahürlərinə görə revmatoid artritin başlanğıc mərhələlərini xatırladır. Oynaqların deformasiyaları və parçalanmaları baş vermir. Əlin kiçik oynaqlarını zədələyir.

5 - Bəzi tədqiqatçılar Bexterev xəstəliyinin visseral formasını ayırd edirlər; bu zaman oynaq və onurğanın zədələnmələri daxili orqanların (ürək, böyrək, göz, aorta, sidikçıxarıcı yollar və s.) dəyişiklikləri ilə müşayiət olunur.

Bexterev xəstəliyinin simptomları

Xəstəlik tədricən başlayır. Bəzi pasientlər qeyd edirlər ki, xəstəlik başlamamışdan bir neçə ay, hətta il əvvəl daimi zəiflik, yuxululuq, qıcıqlanma, oynaqlarda və əzələlərdə zəif uçucu ağrılar hiss ediblər. Bir qayda olaraq, bu dövrdə simptomatika o qədər zəif ifadə olunur ki, həkimə müraciət olunmur. Bəzən Bexterev xəstəliyinin "xəbərçisi" davamlı, müalicəyə çətin tabe olan göz xəstəlikləri (episklerit, irit, iridosiklit) olur.

Bexterev xəstəliyi zamanı onurğanın zədələnmə simptomları

Bexterev xəstəliyinin erkən mərhələsinin xarakterik simptomları onurğanın bel nahiyəsində ağrı və buxovlanma hissidir. Simptomlar axşamlar meydana çıxır, səhərə doğru güclənir, isti duş və fiziki aktivlikdən sonra azalır. Gündüzlər ağrı və buxovlanma sakitlik vəziyyətində yaranır, hərəkət zamanı azalır və ya itir.

Ağrılar tədricən onurğanın yuxarı şöbələrinə doğru yayılır. Onurğanın fizioloji əyrilikləri düzləşir. Döş şöbəsinin patoloji kifozu (nəzərə çarpacaq beli əyrilik) formalaşır. Fəqərəarası oynaqların və onurğanın bağlarının iltihabi prosesləri nəticəsində kürək əzələlərinin daimi gərginliyi meydana çıxır.

Bexterev xəstəliyinin gecikmiş mərhələlərində vertebral oynaqlar birləşir, fəqərəarası disklər sümükləşirlər. Onurğanın rentgenoqrammasında aydın görünən fəqərəarası sümük "körpücüklər"i formalaşır.

Bexterev xəstəliyi zamanı oynaqların zədələnmə simptomları

Tez-tez bexterev xəstəliyinin əhəmiyyətli ilk klinik simptomlarından biri kimi sakroileitr (oma oynağının iltihabı) çıxış edir. Pasientləri sağrının dərinliyindəki ağrılar narahat edir, bəzən bu ağrılar qasıq nahiyəsinə və budun yuxarı hissəsinə yayılır. İri oynaqlarda ağrılar pasientlərin təxminən yarısında meydana çıxır. Oynaqlarda ağrılar və buxovlanma hissi səhərlər və günün birinci yarısında daha çox təzahür edir. Kiçik oynaqlar nadir hallarda zədələnir.

Bexterev xəstəliyinin müalicəsi

Bexterev xəstəliyi zamanı müalicə kompleks və uzunmüddətli aparılır. Müalicənin bütün mərhələlərində onun davamlılığına nəzarət etmək mühümdür: stasionar (travmatologiya şöbəsində) – poliklinika – sanatoriya. Bexterev xəstəliyinin müalicəsində həyat tərzi və xüsusi fiziki yüklənmələr böyük rol oynayır. Müalicəvi gimnastika proqramı individual təşkil olunur. İdman hərəkətləri hər gün icra olunmalıdır. Döş qəfəsinin hərəkətliliyini qorumaq üçün tənəffüs hərəkətləri mütləqdir.

Müalicə zamanı masaj, maqnitoterapiya və refleksoterapiya tətbiq olunur. Bexterev xəstəliyi olan pasientlərə radon, hidrogen sulfid, azotlu müalicəvi vannalar tövsiyə edilir. Xəstəliyin tamamilə müalicəsi mümkünsüzdür, lakin tövsiyələrə əməl olunduqda və düzgün müalicə üsulu seçildikdə xəstəliyin inkişafını tormozlamaq mümkündür. Bexterev xəstəliyi olan pasientlərə daim həkim nəzarətində olmaq, fəsadlaşma dövründə isə stasionar şəraitdə müalicə keçmək mütləqdir.



PSİXOLOQ MƏSLƏHƏTİ
Şəbnəm ƏNDƏLİFOVA
shabnam.aliyeva95@gmail.com

Müsbət düşüncə həyat tərzidir

Müsbət düşüncə həyatın yaxşı tərəflərinə fokuslanan və müsbət nəticələr gözləyən zehni və hissi bir mövqedir. Müsbət düşüncəli insan xoşbəxtliyə, sağlamlığa və müvəffəqiyyətə fokuslanır, hər hansı bir maneə və çətinliyin öhdəsindən gələ biləcəyinə inanır. Pozitiv düşüncə hər kəsin inandığı və qəbul etdiyi bir anlayış deyil. Bəziləri onu axmaqlıq hesab edir. Bununla yanaşı, pozitiv düşüncəni reallıq olaraq qəbul edən və öz fəaliyyətində istifadə edən xeyli insan var.

Müsbət Düşüncə Həyat Tərzidir.

Pozitiv münasibət sayəsində yaxşı və xoşbəxt hislər yaşaya bilərik. Bu düşüncə gözlərə parlaqlıq, daha çox enerji və xoşbəxtlik gətirir. Bütün varlığımız yaxşı niyyət, xoşbəxtlik və müvəffəqiyyət ilə dolur. Bu hal hətta sağlamlığımıza belə müsbət təsir edir.

Müsbət və mənfi düşüncə yoluxucudur. Qarşılaşdığımız insanlara bu və ya digər şəkildə təsir edirik, yaxud da onların təsirinə məruz qalırıq. Bu hal qeyri-iradi olaraq, şüuraltında sözlər, düşüncə və duyğular, həmçinin bədən dili vasitəsilə reallaşır. Mənfi düşüncələr, sözlər və münasibətlər mənfi və bədbəxt hislər, əhval-ruhiyyə və davranışlar yaradır. Zehin mənfi fikirlərlə yükləndikdə, qana zəhər ifraz olunur və bu da daha çox bədbəxtlik və neqativliyə səbəb olur.

Pozitivə kökləmək üçün nələr etməliyik?

Zehni müsbətə tərəf çevirmək üçün daxili münasibət və düşüncələr bir gecədə dəyişmədiyi üçün bəzi daxili məşqlərə ehtiyac var. Bu məqaləni oxuduqdan sonra deyilənləri həyatınızda sınamağa cəhd edin; möhtəşəm nəticələr əldə etdiyinizi özünüz görəcəksiniz. Düşüncələrinizin gücü həyatınızı formalaşdıran güclü bir qüvvədir. Bu proses bütövlükdə götürdükdə, şüuraltında reallaşır, ancaq onu şüurlu prosesə çevirmək mümkündür.

* Təsəvvür qabiliyyətinizi ancaq müsbət vəziyyətləri vizuallaşdırmaq üçün istifadə edin.

* Daxili nitqlərinizdə və yaxud digər insanlarla danışarkən müsbət sözlərdən istifadə edin.

* Gülümsəyin, çünki bu müsbət düşüncənin yaranmasına kömək edir.

* Beyninizə neqativ fikirlər gəldikdə, onları müsbət fikirlər ilə dəyişdirməyə cəhd edin.

* Vəziyyətinizin hal-hazırda necə olması vacib deyil. Müsbət düşünün, yalnız müsbət nəticələr və hadisələr gözləyin. Əgər cəsarətli olsanız, zehninizin düşüncə formasını dəyişəcəksiniz. Dəyişikliklərin reallaşması uzun çəkə bilər, ancaq siz buna nail olacaqsınız.

* Digər bir məsələ qərarların təkrarlanmasıdır. Bu metod yaradıcı təsəvvürlə oxşardır və onunla birlikdə istifadə edilə bilər.

Yaşadığımız həyatda çətinliklər, çətin hadisələr daimi deyil, yarı yolda ağlamaq, keçmişi düşünmək fayda vermədiyini düşün! Pozitiv ol! Davam et!